www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23 iyun 2016-cı il Cümə axşamı № 137 (6458) Qiyməti 60 qəpik

## Xəbər

**Dollar manatı növbəti dəfə təhdid edir; məzənnəsi 1,53 oldu...**

yazısı səh.2-də

## Gündəm

### Həbsdəki bankirin vəkilindən sensasion açıqlamalar



"Cahangir Hacıyevin dustaq saxlanılmasında Maliyyə Nazirliyinin rəhbərliyi günahkardır"; sabiq bank rəhbərinin özünə və ailəsinə məxsus olan 184 milyonluq səhm satılıb, amma..

yazısı səh.4-də

### Zənginlərin və müxalifətçilərin vəkillərinin fərqli cəhətləri...

yazısı səh.3-də

### Prezident ipoteka kreditləşməsi haqda sənəd imzaladı

yazısı səh.2-də

### Vəkil Əliabbas Rüstəmov barəsində çıxarılan hökmdən şikayət verib

yazısı səh.3-də

*Zakir Həsənov:*

### "Praktiki olaraq bizim şəxsi heyət düşmənin mövqelərini yarıb keçdi"

yazısı səh.6-da

### Vətəndaş məhkəmə qərarının icrasını tələb etdi, söyüb yola saldılar

yazısı səh.4-də

### "Hillari Klinton az fərqlə də olsa, noyabrda qalib gələcək" - Bəxtiyar Hacıyev

yazısı səh.5-də

### Ermənistanda yeganə Azərbaycan bayrağı olan yer

yazısı səh.7-də

### Böyük Britaniya bu gün Avropa İttifaqından çıxa bilər

yazısı səh.10-da

### Ramazan ayının 17-ci günü

İftar 20.31. İmsaq 03.08-dək (QMİ)

17-ci günün duası: "İlahi, bu gün məni yaxşı əməllərə yönəlt! Belə bir gündə mənim bütün arzu və ehtiyaclarımı ödə! Ey, izahlara ehtiyacı olmayan Allah! Ey, hamının qəlbində olanları bilən, salamın olsun Məhəmməd (s) və onun pak Əhli-beytinə (ə)!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Neva danışıqlarının yeni detalları - "kartlar" payızda açılacaq

# BAKI VƏ KREMLİN GİZLİ QARABAĞ ANLAŞMASI: İKİ PAYTAXTIN HƏRBİ RAZILIĞI VAR - İDDİA

Azərbaycan prezidentinin Sankt-Peterburqdan inamlı qayıtmasının pərdəarxası və atəşkəslə bağlı İrəvanın əsas gözləntisinin fiasko olmasının səbəbi; işğalçının çəkindiyi mərhələli həllin startı verilib; Putinin müşaviri: "Daha 2-3 belə görüşdən sonra yekun müqavilə imzalanacaq..."




yazısı səh.9-da

# Etibar Məmmədovun sirr dolu "qızıl kart"ı...

"İstiqlalçı"ların liderinə siyasətdən gedişinin müqabilində "biznes pəncərəsi" açılmasının detalları; o, son aylaradək tikinti sahəsində monopolistlərdən biri olub; "Hyatt Regency" hoteli ilə sabiq AMİP sədrini hansı tellər bağlayır...

yazısı səh.7-də



### Professor İlham Rəhimovun növbəti kitabı ingiliscə nəşr olundu

yazısı səh.3-də



### Siyavuş Novruzov İqbal Ağazadəyə sərt cavab verdi

yazısı səh.6-da



*Zahid Oruc:*

### "Obamanın 8 ildə iki prezidentlə birgə görüşə zaman tapmaması fonunda Putin yeganə xilaskara çevrilir"

yazısı səh.11-də

# 23 iyun 2016

## Prezident ipoteka kreditləşməsi haqda sənəd imzaladı

**Azərbaycanda yeni tikilən, ancaq Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun istismarına icazə verilməsi gecikən çoxmənzilli binalardakı mənzillərin alınması üçün ipoteka krediti veriləcək.**

"APA-Economics"in məlumatına görə, bu, Azərbaycan prezidenti İlham Əliyevin bu gün imzaladığı "Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında" fərmanında əksini tapıb.

Fərmana əsasən, "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 27 oktyabr tarixli 661 nömrəli Fərmanında dəyişiklik edilib.

İndiyə qədər "Azərbaycan İpoteka Fondu" ASC-nin ipoteka kreditləşməsinə cəlb etdiyi vəsait, yaşayış sahəsinin 1 kvadratmetri üçün hesablanan qiyməti ipoteka kreditinin verilmə tarixinə ölkənin şəhər və rayon ərazilərinin müvafiq zonalarında orta bazar qiymətindən artıq olmayan, təmir edilmiş, Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun istismarına icazə verilmiş çoxmənzilli binalardakı mənzillərin və məlumatlandırma icraatı qaydasında inşa edilmiş, tikintisinin başa çatması barədə məlumat verilmiş yaşayış evlərinin alınmasına yönəldilib. Dəyişikliyə əsasən isə Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun istismarına icazə verilməsi tələbi aradan qaldırılıb.

Başqa sözlə, Azərbaycan İpoteka Fondu" ASC-nin ipoteka kreditləşməsinə cəlb etdiyi vəsait, yaşayış sahəsinin 1 kvadratmetri üçün hesablanan qiyməti ipoteka kreditinin verilmə tarixinə Bakı şəhəri, habelə onun qəsəbə və kəndləri üzrə zonalarda, ölkənin digər şəhər və rayon ərazilərində orta bazar qiymətindən artıq olmayan və təmirli yaşayış sahələrinin alınmasına yönəldiləcək.





## Savçenko İlqar Məmmədovun azadlığa buraxılmasını tələb etdi

**Ukraynanın AŞ PA-dakı nümayəndə heyətinin üzvü Nadejda Savçenko REAL hərəkatının lideri İlqar Məmmədovun azadlığa buraxılması tələbi ilə keçirilən aksiyada iştirak edib.**

Virtualaz.org bildirir ki, aksiya Strasburqda, Avropa İttifaqının binası qarşısında keçirilib.

Təşkilatçılar sosial şəbəkələrdə Nadejda Savçenkonun əlində İlqar Məmmədovun azadlığa buraxılmasını tələb edən plakat tutduğu şəklini paylaşıblar.

Xatırladaq ki, İ.Məmmədov 2013-cü ilin yanvarında İsmayıllıda baş verən iğtişaşların təşkilində ittiham olunaraq həbs edilib.

## Binəqədidə iki kişi meyiti tapıldı

**Bakının Binəqədi rayonunda iki meyit tapılıb. "Report"un xəbərinə görə, rayonun Ə.Naxçıvani küçəsi, ev 24 ünvanında yaşayan 1958-ci il təvəllüdlü Azad Vəliyevin üzərində zorakılıq əlamətləri görünməyən meyiti aşkar olunub.**

Oxşar hadisə Binəqədi rayonunun 28 May qəsəbəsində də qeydə alınıb. Həmin qəsəbədə Bakı şəhər sakini 1951-ci il təvəllüdlü Ədalət Heybətovun üzərində zorakılıq əlamətləri görünməyən meyiti aşkarlanıb.

Hər iki faktla bağlı rayon prokurorluğunda istintaq aparılır.


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# İlham Əliyev və Sərkisyan iyulda Varşavada görüşə bilərlər

**Moskvadan sonra təşəbbüsü Vaşinqton öz əlinə alır. Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüş yeri Varşava ola bilər. ANS PRESS-in məlumatına görə, bu haqda Ermənistan KİV-də məlumat yayılıb. Məlumata görə, iyulun əvvəlində Polşanın paytaxtında NATO-nun sammiti keçiriləcək. Bu tədbiri alyansın baş katibi Stoltenberq artıq təşkilatın tarixində bir dönüş kimi qiymətləndirib. Sammitdə Rusiyanın alyansa ciddi təhlükə olduğu və NATO-un Qara dənizdə hərbi potensialı artırması haqda elan veriləcəyi gözlənilir.**



NATO-nun Nyu-Portda keçirilən sonuncu sammitinə İlham Əliyev və Serj Sarkisyanın dəvət olunması və burada ABŞ dövlət katibi Con Kerrinin təşəbbüsü ilə Dağlıq Qarabağ probleminin həll olunmasına dair danışıqlar çərçivəsində prezidentlərin görüşməsi növbəti görüşün Varşavada baş tuta biləcəyi ehtimalını artırır. 2014-cü ildə Nyu-Portda Qərb tərəfləri gərginliyin aradan qaldırılması üçün səylərini əsirgəməməyə çağırmışdı. Diqqət çəkən məqamlardan biri bu görüşdən əvvəl Vladimir Putinin təşəbbüsü ilə Soçidə Əliyev və Sarkisyanın iştirakı ilə 3 tərəfli görüşün təşkil olunması idi. O zaman Putin problemin həll olunması üçün 3 ölkə arasında mövcud olan tarixi münasibətlərdən istifadə olunmasını vacib hesab etdiyini bildirmişdi. Soçidəki görüş ATƏT-siz keçirilmişdi. Ondan sonra daha bir görüş Fransada baş tutumuşdu.

Bu dəfə də Sankt-Peterburqda Vladimir Putinin tarixi münasibətləri yada salması tarixin təkrarlana biləcəyini güman etməyə əsas verir.

Prezident Administrasiyasının sabiq əməkdaşı, politoloq Tofiq Abbasov hesab edir ki, Varşavada İlham Əliyev və Serj Sarkisyanın növbəti görüşünün baş tutması real görünür. Onun sözlərinə görə, Qərb və Rusiya arasında Dağlıq Qarabağ münaqişəsi məsələsində sərt rəqabət gedir.

"Qərb ölkələri son zamanlar bu məsələyə bir az dözümlü yanaşaraq Rusiyanın bu işdə təşəbbüsünü dəstəklədi. İndi isə Vaşinqton və Moskva arasında bu rəqabət yeni bir məna almağa başlayıb. Burada qlobal baxımdan söhbət kimin daha vacib və güclü, son söz sahibi olmasından gedir. Bu baxımdan ABŞ dünyada baş verən heç bir prosesdən geri qalmaq, o cümlədən Qarabağ məsələsində də birinciliyi əldən vermək istəmir. Bu baxımdan NATO-un Varşavada keçiriləcək sammitində qərb ölkələrinin təşəbbüsü ilə Dağlıq Qarabağ münaqişəsinin müzakirə olunacağı və prezidentlərin görüşəcəyi realdır".

Prezidentlərin son görüşü iyunun 20-si Sankt-Peterburqda keçirilib. Burada Rusiya prezidenti Vladimir Putin Azərbaycan prezidenti İlham Əliyev və Ermənistan prezidenti Serj Sarkisyanla təkbətək görüşü, daha sonra dövlət başçılarının üç tərəfli görüşü baş tutub.

## Dolların məzənnəsi 1,53 manatı ötdü

**Azərbaycan Mərkəzi Bankı (AMB) iyunun 23-ə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb.**

Musavat.com AMB-nin saytına istinadən məlumata verir ki, USD/AZN rəsmi məzənnəsi iyunun 23-ə 1,5301 səviyyəsində müəyyən olunub. Qeyd edək ki, bu gün dollar 1,5270 manata bərabər olub.

## Azərbaycanda əməliyyat zamanı başında güllələnən polis öldü

**27 yaşlı Vasif Bağırov bu gün səhər saatlarında xəstəxanada keçinib.**

Ağstafada keçirilən əməliyyat zamanı xidmət yoldaşı tərəfindən ehtiyatsızlıqdan açılan atəşlə başından güllə yarası alan polis əməkdaşı dünyasını dəyişib.

ANS PRESS-in APA-ya istinadla verdiyi məlumata görə, 27 yaşlı Vasif Bağırov bu gün səhər saatlarında müalicə aldığı xəstəxanada vəfat edib.

Axtarışda olan Tahir Fərzəli oğlu Ayralovu yaxalamaq üçün Ağstafa rayon Polis Şöbəsinin əməkdaşları Ağstafa rayonunun Dağ Kəsəmən kəndində bir neçə gün əvvəl əməliyyat keçiriblər. Gecə saatlarında keçirilən əməliyyat zamanı T. Ayralov müqavimət göstərib və polis əməkdaşları silah tətbiq etməyə məcbur olublar.

Polisin atdığı güllələrdən biri başqa bir polis əməkdaşı, 1989-cu il Vasif Şaiq oğlu Bağırovun başına dəyib.



Oktay Vural

## MHP-də ciddi ayrılıq - Bahçelinin sağ qolu istefa verdi

**Milliyyətçi Hərəkat Partiyasından millət vəkili, partiyanın parlament fraksiyasına rəhbərlik edən Oktay Vural vəzifəsindən istefa edərək partiya daxili müxalifətə qatılıb. O.Vural Doğan Xəbər Agentliyinin müxbirinə verdiyi açıqlamada partiyada baş verən prosesi dəyərləndirdikdən sonra belə bir addım atdığını bildirib.**

Yerli mətbuat isə Vuralın hələ bir müddət əvvəldən belə bir planı olduğunu, partiyada dəyişiklik olması ilə bağlı təklifləri irəli sürdüyünü yazır. Hətta MHP dəhlizlərində bir müddət öncədən Vuralın hazırkı vəzifəsindən istefa verərək "müxaliflərə" qatılacağı haqqında iddialar vardı. Hətta son olaraq MHP millət vəkillərinin hazırkı partiya sədri Dövlət Bahçeliyə dəstək müraciətinə O.Vural imza atmamışdı. Lakin həmin vaxt D.Bahçeli Vuralı müdafiə edərək, onun müxaliflərə yaxın olması iddialarını təkzib etmişdi. Ancaq eyni zamanda bir qədər əvvəl partiya sədrliyinə əsas iddiaçı Meral Akşener də mətbuata verdiyi açıqlamada O.Vural və bir neçə il əvvəl dünyasını dəyişmiş həyat yoldaşı ilə yaxın dostluğunun olduğunu demiş, ancaq buna baxmayaraq Oktay bəyi "rahat buraxdığını", partiyadan ayrılması üçün təzyiq etmədiyini bildirib.

Gələn iddialara görə, Vurala yaxın olan bəzi yerli təşkilat rəhbərləri də "müxaliflər" tərəfə keçəcək. Yeri gəlmişkən, iyulda MHP-nin növbədənkənar qurultayı keçiriləcək və partiyaya yeni sədr seçiləcək. İyunun 19-da keçirilən nizamnamə dəyişikliyi qurultayı partiyanın hazırkı rəhbərliyinin bütün müqavimətinə baxmayaraq baş tutub. Müşahidəçilərə görə, iyulda keçiriləcək qurultayda Bahçeli də öz namizədliyini irəli sürəcək. Müxalif qanaddan isə namizəd isə keçmiş vitse-spiker Meral Akşener olacaq. Digər iddiaçıların isə şansları daha azdır. Bu səbəbdən də gözlənilir ki, Bahçeli və Akşener arasında mübarizədə digər namizədlərin dəstək verəcəyi təqdirdə Akşenerin qalib gəlmək şansları çoxdur. Lakin bəzi ekspertlərə görə, son anda Bahçelinin geri çəkilib namizədlərdən birini (Akşener deyil) dəstəkləməsi də mümkündür. Bütün bunlar qurultay öncəsi məlum olacaq.

Həftənin ikinci günü istefa ərizəsini partiya sədrinə təqdim edən Oktay Vural MHP-də ən parlaq şəxslərdən biri hesab olunur. Partiyanın parlament fraksiyasının lideri olan Vural sərt çıxışları ilə məşhurdur.

❑ Kənan Rövşənoğlu



## Azay Quliyev seçiciləri ilə növbəti görüşünü keçirdi

**İyunun 22-də millət vəkili Azay Quliyev YAP Binəqədi rayon təşkilatının binasında seçiciləri ilə növbəti görüşünü keçirib.**

Seçicilər məşğulluq, təhsil, kredit, əfv, sahibkarlıq və müxtəlif dövlət qurumları ilə bağlı məsələlərlə millət vəkilinə müraciət ediblər. Müraciətlərin bəzilərinin həlli ilə bağlı yerindəcə qərar qəbul edən millət vəkili, digər məsələlərin icrası istiqamətində də müvafiq addımlar atacağını bildirib.

## Ali Məhkəmə AXCP üzvünün cəzasını 6 ildən 2 il 6 aya endirib

**Ali Məhkəmədə narkotik vasitələrin qanunsuz dövriyyəsində təqsirləndirilən AXCP üzvü Elvin Abdullayevin kassasiya şikayətinə baxılıb.**

APA-nın məlumatına görə, hakim İmran Hacıqayıbovun sədrlik etdiyi iclasda qərar elan edilib. Qərara əsasən, E. Abdullayevin ittiham olunduğu 234.4.3-cü (külli miqdarda narkotik vasitə əldə etmə, saxlama, satma, daşıma, göndərmə) maddəsinin 234.1-ci (satış məqsədi olmadan narkotik vasitə əldə etmə) maddəsinə tövsif edilib. Onun cəzası 6 ildən 2 il 6 aya endirilib.

Qeyd edək ki, Elvin Abdullayev Cinayət Məcəlləsinin 234.4.3 (külli miqdarda narkotik vasitələrin satış məqsədilə əldə edilməsi, saxlanması və s.) maddəsi ilə ittiham olunub.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Elvin Abdullayev 6 il müddətinə azadlıqdan məhrum edilib. Hökmdən verilən apellyasiya şikayəti isə təmin edilməyib.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 137 (6458) 23 iyun 2016

# Professor İlham Rəhimovun növbəti kitabı ingiliscə nəşr olundu

**Hüquq elmləri doktoru, professor İlham Rəhimovun Sankt-Peterburqun “Öridiçeskiy çentr” nəşriyyatı tərəfindən rus dilində çap olunmuş “O nravstvennosti nakazanie” (“Cəzanın əxlaqı haqqında”) adlı növbəti yeni kitabı İngiltərədə nəşr olunub. İngilis dilinə tərcümə olunmuş monoqrafiya cəzanın fəlsəfi mahiyyəti haqqında müəllifin “Cinayət və cəza” (M., 2012), “Cinayət və cəzanın fəlsəfəsi” (SPb, 2013) kitablarında ifadə edilmiş düşüncələrinin davamıdır.**



Əsərdə isbat edilir ki, hüquq elmi yalnız cəzanın formal tərifini verə bilər, bundan artığına qadir deyil. Bu fenomenin mahiyyəti haqqında mücərrəd mühakimə onun əxlaqına müdaxiləyə cəhd etmək, fəlsəfi fikrin hazırladığı kateqoriyalara daxil etmək imkanı verir. Xüsusən əgər söhbət ölüm cəzasından gedirsə, cəza əxlaqidirmi? Cəza qisas, qorxutma, psixoloji təsirdirmi? Cəzalandırma əxlaqının əsası nədir? Cəmiyyət cəza yolu ilə qarşısına qoyduğu məqsədlərə çatırmı? Müasir şəraitdə cəzadan imtina etmək mümkündürmü? Bu maraqlı əsərdə professor İ.Rəhimovun cavab verməyə çalışdığı sualların tam olmayan siyahısı belədir.

Oxucular tərəfindən maraqla qarşılanan kitab tələbələr, hüquq ali məktəblərinin aspirant və müəllimləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, cinayət hüququ sahəsində ixtisaslaşan nəzəriyyəçi və praktiklər, eləcə də filosoflar, sosioloqlar, psixoloqlar, cinayət və cəza problemləri ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulub.









## Əliabbas Rüstəmov barəsində çıxarılan hökmdən şikayət verib; Yavər Hüseynli: “Azadlığa çıxacağına ümidləri çoxdur”

**Vəkil Əliabbas Rüstəmovun həbsindən iki il ötür. “Yasavul” MMC-nin direktoru olan hüquqşünas Cinayət Məcəlləsinin 312.2-ci maddəsi ilə (rüşvət vermə) ilə təqsirləndirilib və 7 il müddətinə azadlıqdan məhrum edilib.**

Vəkil bunu böhtan hesab edir və siyasi mövqeyi ilə əlaqələndirir.

Vəkil ona oxunan hökmdən apelyasiya şikayəti verib.

Bu barədə “Yeni Müsavat”a onun hüquqlarını qoruyan vəkil Yavər Hüseynli məlumat verib: “Əliabbas bəyin işindən apelyasiya şikayəti vermişik. Məhkəmə belə qərara gəlmişdi ki, ilkin qərar olmadan məhkəmə baxışı keçirilsin. Mən də qərardan Ali Məhkəməyə müraciət etdim. Bu instansiya qurumu isə Ağır Cinayətlər Məhkəməsinin ilkin baxış qərarını dəyişdirmədi. Artıq Apelyasiya Məhkəməsində işə baxılmasını gözləyirik. Hələ zaman təyin olunmayıb. Sonuncu dəfə iyunun 19-da Əliabbas Rüstəmovla görüşdüm. Elə də ciddi problemi yox idi. Saxlanıldığı müəssisədə ümumi vəziyyəti normaldır. Azadlığa çıxacağına ümidləri çoxdur. Öz mövqeyində qətidir. Təqsirsiz olduğuna əmindir. Sona qədər mübarizə aparmaq qərarındadır. Onun həbsi tam ədalətsizdir. Sifarişlə verilən bir hökmdür. Üzərimizə düşənləri etməyə çalışırıq. Ona qarşı olan ittihamlar da öz təsdiqini tapmayıb. Amnistiya aktına onun maddələri düşmür. Apelyasiya Məhkəməsindən sonra növbəti addımlarımızı qərara uyğun olaraq atacağıq. Müdafiə funksiyasını sona qədər davam etdirəcəm. Təbii ki, məndən vəkili kimi imtina etməsə”.

Qeyd edək ki, Ə.Rüstəmov 2014-cü il iyunun 28-də həbs olunub. Vəkil bir nəfər Beyləqan sakinindən onun barəsində vergidən yayınma maddəsi ilə Vergilər Nazirliyinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin İstintaq İdarəsində başlanmış cinayət işini bağlatdıracağını vəd verməklə 95 min manat almaqda ittiham olunur.

❑ **Cavanşir ABBASLI**

# Zənginlərin və müxalifətçilərin vəkillərinin fərqli cəhətləri...

**Vəkillik spesifik peşədir və onun da özünəməxsus maraqlı cəhətləri var. Azərbaycanda vəkillərin bir neçə kateqoriyaya bölünməsi də sirr deyil. Bir qisim vəkillər daha çox müxalifətçilərin hüquqlarını qoruyur, onlar saxlanılanda müqavilə bağlayır və hüquqi çəkişmə aparırlar. Bir qisim vəkil isə daha çox zənginlər, yüksək dövlət postlarında çalışan şəxslər tutulanda onların hüquqlarının müdafiəsinə qoşulurlar.**



**Elçin Sadıqov: “Zənginlərin vəkillərinin bizdən çox qazandıqları faktdır”**



**Müzəffər Baxış: “İmkanlılar vəkillərindən makler kimi istifadə edirlər”**

Hər iki düşərgədə maraqlı bir vəziyyət də yaranıb. Daha çox müxalifəçilərin vəkilləri olan şəxslər onlara müraciət olunduqda varlıların hüquqlarını müdafiə etməyə maraq göstərmirlər. Baxmayaraq, onlar həbsdə olsalar da, maliyyə baxımından imkanları siyasi məhbuslarla müqayisədə ölçüyə gəlməyəcək dərəcədə yüksəkdir. Bəziləri bunu bir çox vəkillərin reputasiyalarını qorumaları, yəni korrupsionerləri müdafiə etməkdən çəkinmələri ilə əlaqələndirirlər.

Müxalif vəkil varlı bir şəxsi, yaxud vaxtilə yüksək vəzifədə çalışan və sonradan həbsə atılan bir sabiq dövlət məmurunun hüquqlarını qorumağı üzərinə götürərsə, onun ünvanına xoşagəlməz ittihamların səsləndiriləcəyini təxmin etməmək mümkün deyil.

Qəribə bir vəziyyət də əks düşərgədə cərəyan edir. Əsasən zənginlərin müdafiəçisi olanlar müxalifətçilərin vəkili olmaqdan çəkinirlər.

Onlar peşəsinə maneələr yaradılacağından, hər hansı bir təzyiqlərə məruz qalacaqlarından ehtiyatlanırlar.

Bəs hüquqşünaslar özləri bu barədə nə deyir?

**Daha çox siyasilərin vəkili kimi tanınan Elçin Sadıqov bildirdi ki, müxalifətçilərin hüquqlarını qorumağın müəyyən çətinlikləri var:** “Siyasi məhbusun vəkili olmaq bir sıra məhdudiyyətlər yaradır. Digər işlərdə bu açıq şəkildə görünür. Varlı şəxslər müxaliflərin müdafiəçisi olan vəkillərlə ünsiyyət qurmurlar. Problem yaşayacaqlarından qorxurlar. Bu baxımdan işlərini başqa vəkillərə gördürürlər. Zənginlərin vəkillərinin bizdən çox qazandıqları faktdır. Amma mən maliyyədən çox azad düşüncəli insanların müdafiəsində durmağı düşünürəm. İndiyə qədər mənə azsaylı olsa da, varlı şəxslərdən müraciətlər olub. Varlı məhbuslar düşünürlər ki, danışıqlar yolu ilə azadolma imkanları daha çoxdur. Ona görə digər - yəni hakimlərlə, prokurorla danışıqlara gedən vəkillərə üstünlük verirlər”.

**“Varlı şəxslər ona müraciət edərsə, hüquqlarını müdafiə edərsinizmi” sualına E.Sadıqovun cavabı belə oldu:** “Əgər iş fəaliyyətimlə üst-üstə düşərsə, belə təklifləri dəyərləndirərəm”.

**Vəkil Fəxrəddin Mehdiyev müxalif şəxslərin müdafiəçilərinin mövqelərinin daha güclü olduğunu qeyd etdi:** “Haqqı müdafiə etmək vəkil üçün daha asandır. Ona görə qonorar elə bir əhəmiyyət kəsb etmir. Təbii ki, zənginləri müdafiə etmək maddi baxımdan vəkillər üçün önəmli olur. Amma bu, vəkillərin şəxsi işidir. Onlara nəsə deyə bilmərəm. İmkanlı şəxslərdən müraciət olsa, təbii ki, hüquqlarını vəkil etikası çərçivəsində müdafiə edərik. Çünki onların məhkəmədə hüquqlarını müdafiə etmək zəruridir. Bu məsələyə normal yanaşırıq. Siyasi məhbuslarla bağlı maliyyə problemləri çıxanda öz imkanımız daxilində həll etməyə çalışırıq. Çünki onların imkanları çox zəif olur. Əlavə problemlərin yaranmasını istəmirik”.

**Tanınmış hüquqşünas Müzəffər Baxış bu cür bölgünün aparılmasının əleyhinədir:** “Azərbaycanda ”makler vəkil"lər var. Bunlar varlının da, kasıbın da vəkilləri olurlar. Onlar heç bir əziyyət çəkmədən yalnız pul daşımaqla məşğuldurlar. Hakimlərin adından istifadə edərək, bu yolla zəngin olurlar. Hakim bir iş üzrə 10 min istəyirsə, vəkil bundan bir az artıq alır. Azərbaycanda vəkillikdə pul qazanmağın yeganə yolu maklerlik etməkdir. Zənginlər vəkillərindən makler kimi istifadə edirlər. Çünki pul daşıyan vəkilləri olmasa, həbsdə qalarlar. Hakimlərlə əlaqəyə girməyən vəkillər zəngin yaşaya bilməzlər. Azərbaycan balaca ölkədir. Bu baxımdan maraqlananda hansı vəkilin nə işlə məşğul olduğunu tez öyrənmək olur. Yaxınlarda bir “makler vəkil”in adı Bayraq Meydanının rəisinin məhkəməsində hallandı. Adını çəkmək istəmirəm. Amma bahalı maşınlarla məhkəmələrə gəlib, hakimlərlə makler işlərini həyata keçirirmiş. Özü də savadsızın biridir. Amma zəngin yaşayır. Bu tipli vəkillər üçün peşə dəyərləri yoxdur. Müstəqil vəkillərə, hakimlərə pul daşımayanlara hər yerdə hörmət edilir. Çünki peşəsinin şərəfini qoruyur, pul qarşısında əyilmir. Bu cəmiyyətdə “makler vəkil”lər daha çox irəli gedirlər. Bir hakim var, onlar barəsində deyir ki, bunlar yaşamağı bacaran şəxslərdir. Zəngin və kasıbların vəkilləri arasındakı fərqi dediklərimdə görürəm".

❑ **Cavanşir ABBASLI**

# Həbsdəki bankirin vəkilindən sensasion açıqlamalar

## Aqil Layıcov Cahangir Hacıyevin hələ də dustaq saxlanılmasında bir qurumu günahkar görür: Maliyyə Nazirliyinin rəhbərliyini; sabiq bank rəhbərinin özünə və ailəsinə məxsus olan 184 milyonluq səhm satılıb, amma..

**Beynəlxalq Bankın İdarə Heyətinin sabiq sədri, hazırda həbsdə olan Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyevaya qarşı başlanmış cinayət işi müzakirə olunmaqdadır. C.Hacıyevin vəkili Aqil Layıcov Hacıyevlər ətrafında baş verən olaylarla bağlı "Yeni Müsavat"a müsahibə verib. Deyib ki, Z.Hacıyeva barəsində çıxarılan qərardan narazıdır.**



*Vəkil məhkəməyə müraciət hazırladıqlarını bildirib:*

- Həmin qərarı mübahisələndirməyə hazırlaşırıq. Yaxın 2 gündə məhkəməyə müraciət edəcəyik.

***- Nədən narazısınız?***

- Qərarda yazılıb ki, guya Zamirə Hacıyeva istintaqdan yayınıb. Bunu əsas gətirib həbs-qətimkan tədbiri seçilib. Bu yalan məlumatdır. Zamirə Hacıyeva 10 ildir ki, Azərbaycanda yaşamır. Kredit borcuna görə həbs isə ağlasığmazdır. Bu gün Azərbaycanda demək olar ki, hər kəsin kredit borcu var. Aşağı-yuxarı hər kəs borc içindədir. Mülki məsələni cinayət kimi qiymətləndirib kimisə günahlandırmaq düzgün deyil.

***- Zamirə Hacıyevanın 10 ildən artıq bir müddətdə Azərbaycanda yaşamadığını dediniz. Cahangir Hacıyevlə nikahları qüvvəsindədirmi?***

- Bəli, sadəcə, Zamirə Hacıyeva xarici ölkə vətəndaşıdır və 10 ildən artıqdır ki, orada yaşayır, uşaqları da orada təhsil alır.

**"Zamirə Hacıyeva xarici ölkə vətəndaşıdır və 10 ildən artıqdır ki, orada yaşayır, uşaqları da orada təhsil alır"**



***- Cahangir Hacıyevdən nə qədər pul tələb edirlər, ittiham aktında göstərilən məbləğ nə qədərdir?***

- Hələlik ittiham aktı tərtib edilməyib. Ona görə konkret bir söz deyə bilmərəm. İş orasıdır ki, bəzi orqanlar var, məsələn, Maliyyə Nazirliyi iddia edir ki, məbləğ filan qədərdir. Həmin məbləğ isə 10 dəfələrlə şişirdilmiş məbləğdir.

***- Maliyyə Nazirliyinin Cahangir Hacıyevin mənimsədiyini iddia etdiyi məbləğ nə qədərdir?***

- Söhbət milyarddan gedir. Əslində isə fakt cüzi məbləğ olmalıdır. Həmin cüzi məbləğ hara xərclənib açıqlaması istintaqa verilib.

***- Rəqəmi bir qədər konkretləşdirmək olar? Neçə milyarddan söhbət gedir?***

- Rəqəm dəqiq olmadığı üçün konkret söz deyə bilmirəm. Sadəcə, rəqəm Maliyyə Nazirliyi tərəfindən hədsiz dərəcədə şişirdilib.

***- Maliyyə Nazirliyinin mövqeyi nəyə əsaslanır?***

- Orada subyektiv məsələlərdir.

***- Cahangir Hacıyevlə Maliyyə Nazirliyi rəhbərliyinin şəxsi münasibətlərinə əsaslanan məsələdir?***

- Bəli, Cahangir Hacıyevlə Maliyyə Nazirliyi rəhbərliyinin münasibəti heç zaman yaxşı olmayıb. Dəfələrlə Beynəlxalq Bankda, aidiyyəti şirkətlərdə yoxlamalar olub. Həmin yoxlamaların nəticələri Maliyyə Nazirliyinə təqdim olub. Nəticələr Maliyyə Nazirliyi tərəfindən qaralanıb, "qara piar"a məruz qalıb. Beynəlxalq Bankda, aidiyyəti şirkətlərdə böyük audit yoxlaması zamanı Maliyyə Nazirliyi rəhbərliyi iddia edib ki, guya Cahangir Hacıyev həmin audit şirkətini ələ alıb. Həmin məsələ Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən yoxlanılıb. İndi də işi Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Baş İdarəsinə veriblər. Bu qurum isə ixtisaslaşmış orqan olaraq iqtisadi məsələləri çözmək və ya qiymət vermək iqtidarında deyil. Hazırda yoxlamaya Maliyyə Nazirliyinin rəhbərliyi nəzarət edir. Onların subyektiv maraqları olmasına baxmayaraq dedikləri zərər ortaya çıxmır. Çünki dedikləri həmin rəqəmlər cəfəngiyyatdır.

***-Subyektiv maraqlar dedikdə hansı mövzuda maraqlardan söhbət gedir?***

- Burada söhbət qısqanclıqdan gedir. Ölkənin beynəlxalq reytinqini müəyyən edən şirkətlər var. "Ficht", "Standart and Poor", "Modes İnternational" kimi şirkətlər ölkənin müstəqil maliyyə reytinqini müəyyən edərkən dövlətin qurumlarının, bankların göstəricilərini də nəzərə alınıb. 2000-2015-ci illərdə maliyyə reytinqi müəyyən edilərkən Beynəlxalq Bankın reytinqi Maliyyə Nazirliyinin suveren maliyyə reytinqindən üstün olub. Biz hesab edirik ki, bu məqam Maliyyə Nazirliyi rəsmilərində qısqanclıq hissinin yaranmasına səbəb olub.

***- Zamirə Hacıyeva ittihamda yer alan, onun 2009-cu ildən 2015-ci ilə qədər xərclədiyi kimi göstərilən 18 milyon manatı təsdiqləyirmi, razılaşırmı?***

- Hazırda bu məsələ ilə bağlı məhkəmədə mülki mübahisələrimiz gedir. Həmin pulun əvəzinə Hacıyev ailəsinə məxsus olan Beynəlxalq Bankın səhmləri alınıb. 2015-ci ildə Zamirə xanımın kredit kartında 4 milyon manat borc olub. Cahangir Hacıyev vəzifədən ayrılan zaman onların ailəsinə məxsus səhm paketi olub. Zamirə Hacıyeva səhm paketini satıb ki, borcuna yönəldilsin. İndiyə qədər nə bir qəpik pul verilib, nə də pulun hara getməsi bilinir!

***- Həmin səhmlər kimə verilib?***

- Banka təslim edilib ki, borclara yönəldilsin. Amma yönəldilməyib. Buna baxmayaraq, Zamirə Hacıyevaya cinayət işi başlayıblar.

***- Səhmlərin Beynəlxalq Banka təhvil verilməsini təsdiqləyən əlinizdə müqavilə, sənəd varmı?***

- Əlimizdə müqavilə var. Həmin müqavilələrdə reyestr saxlayıcının da qeydləri var.

***- Beynəlxalq Bankda Zamirə Hacıyeva kimi müştərilər - 5-6 ilin ərzində 18 milyon manat pul xərcləyənlər çoxmu olub?***

- İşə aidiyyəti olub-olmadı, adamları götürüb həbs ediblər. Məsələn, "Bermud-Elektroniks"in rəhbərini həbs ediblər. Adam Azərbaycanda yaxşı biznesmenlərdən biri olub. Onun anbarında bu gün 10 milyon manatlıq malı var. Amma həmin malı satmağa və krediti qaytarmağa imkan vermirlər. Əgər kreditləşmə sahibkarlığa dövlət dəstəyidirsə, sahibkarı götürdüyü kreditə görə həbs etmək nəyə xidmət edir? Kredit almaq nə vaxtdan dələduzluq olub?

***- Cahangir Hacıyev ittiham üzrə tələb olunan məbləği qaytarıbmı?***

- Cahangir Hacıyevin özünə və ailəsinə məxsus olan 184 milyonluq səhm satılıb. 1 manatını da olsa, qaytarmayıblar. Həmin səhmləri ona görə verib ki, ehtimal olunan zərərləri bağlasınlar. Bu gün obyektiv araşdırma aparılsa, həmin səhmlərin satılmasından əldə olunan gəlirlə kredit borcları bağlanmalı, əsassız cinayət işləri açılmamalı idi. Hazırda bu məsələlərlə bağlı Nəsimi Rayon Məhkəməsində iddiamıza baxılır. Yaxın zamanlarda bu haqda da geniş açıqlama verəcəyik.

***- Dediniz ki, Maliyyə Nazirliyi rəhbərliyi şəxsi mülahizələrinə əsaslanaraq Cahangir Hacıyevə qarşı milyardlıq iddialar irəli sürüblər. Cahangir Hacıyevdə həmin məbləğləri örtəcək qədər səhm varmı?***

- Ümumiyyətlə, kredit götürənlərin heç biri deməyib ki, krediti şəxsən Cahangir Hacıyevdən alıblar. Kreditlər layihələrə ayrılıb və bu gün həmin layihələrin işlək vəziyyətdə olmaması oradan professionalların uzaqlaşdırılması ilə bağlıdır. Yeni təyin edilən şəxslər səriştəsizdirlər və müəssisələr ona görə iflic durumdadırlar. Ayrılan kreditlərdən yalnız iki Dubay layihəsi üzrə pullar xaricə çıxıb. Həmin müəssisələr də göz qabağındadır. Hazırda Beynəlxalq Bankın layihələrinə Maliyyə Nazirliyinin təyin etdiyi şəxslər rəhbərlik edib. Həmin şəxslər müəssisələri bərbad duruma salıblar. Bir tərəfdən deyirlər ki, Cahangir Hacıyevin qurduğu müəssisələr rentabelli deyil, o biri tərəfdən də bu yaxınlarda Kənd Təsərrüfatı Nazirliyinin keçirdiyi sərgidə uğurlu layihələr kimi Cahangir Hacıyevin qurduğu layihələri təqdim etdilər.

***- Hansı şirkətlərdən söhbət gedir?***

- "İnter Tobacco", pambıq istehsalı üzrə Zaqafqaziyanın ən böyük zavodu olan CTC, Oğuz Qlükoza zavodu və digərlərini uğurlu layihə kimi təqdim etmişdilər. Həmin layihələri ölkə rəhbərliyinə son 20 ilin ən uğurlu layihələri kimi təqdim etdilər.

***- Cahangir Hacıyevin sağlıq durumu necədir?***

- Onda Haşimoto sindromu var. Bu, oksigen çatışmazlığıdır və ürək fəaliyyətinin pisləşməsinə, qan təzyiqinin yüksəlməsinə səbəb olur. Cahangir Hacıyevin saxlandığı kamerada ventilyasiya demək olar ki, yoxdur. Həmin kamera çox isti olur. Bu isə onun halının pisləşməsinə, gün ərzində 2-3 dəfə üstünə həkim çağırılmasına səbəb olur. Bu məsələ ilə bağlı biz Penitensiar Xidmətin rəhbərliyinə müraciət etmişik. Xahiş etmişik ki, gün ərzində kameranın pəncərəsi açıq saxlansın.

***- Cahangir Hacıyevə bu cür münasibət nədən qaynaqlanır?***

- Düşünür ki, dövlətçiliyə sadiq olub. Kimlərinsə beynində hazırkı istintaqın aparılmasının vacibliyi haqda rəy formalaşıb. Bununla bağlı yeganə versiyası Maliyyə Nazirliyinin qərəzi və ölkə başçısına düzgün məlumatların verilməməsi idi.

***- Həbsinin Eldar Mahmudovla əlaqəli olması haqda iddiaları bölüşürmü?***

- Eldar Mahmudovla Cahangir Hacıyev 2012-ci ildə qohum olublar. Yəni qohumluqla əlaqəsi qəti yoxdur.

***- Beynəlxalq Bankın ən reytinqli dövrlərində xırda payçıların dividendləri ödənilmirdi, bank rəsmilərinin adları ən müxtəlif müəssisələrin zəbt edilməsində keçirdi. Bu məsələlərlə bağlı Cahangir Hacıyevə ittiham verilibmi?***

- Həmin məsələlər məhkəmələrdə araşdırılmalıdır. Şəxslərin hüquqlarının təminatçısı məhkəmələrdir. Sual çıxır ortaya; bəs məhkəmələr niyə həmin şəxslərin iddialarını təmin etməyib?

❑ **E.MƏMMƏDƏLİYEV**

# Məhkəmə qərarının icrasını tələb etdi, söyüb yola saldılar

## Mehparə Ağasıyeva: "Rəisləri də dedi ki, burada söyüş adı danışıqdır"



**Xırdalan şəhər sakini Mehparə Ağasıyeva Abşeron rayon Xırdalan icra şöbəsindən şikayətçidir. O deyir ki, 3 ildir icra şöbəsi məhkəmə qərarını icra etmir, üstəlik, icraçılar onu hədələyirlər: "2013-cü ildə Anar Ağacanov qızım Zöhrə Ağasıyeva ilə ailə qurub. 2 ay sonra isə qızımı döyüblər. Səhv edib polisə, prokurorluğa şikayət etmədik. Xəstəxanalarda qızımı müalicə etdirdik. Məhkəməyə müraciət etdik, əmlakları tələb elədik. Məhkəmə 3 min manatlıq ziyan müəyyən etdi və ödənməsini təmin etmək üçün icraya yönəltdi. 3 ildir ki, iş Xırdalan İcra Şöbəsinin icra məmuru Nicat Ramazanidə idi. İndi isə Məhəmməd Müsəllimovu qabağa verirlər. Biz müraciət edəndə bir tamaşa qururlar, mənə yumruq qaldırıb təhqir edirlər, söyüş söyürlər. Deyirlər ki, sınıq-salxaq əşyaları götürməlisən. Həmin əşyalar mənə məxsus deyil, mən o əşyaları necə götürə bilərəm?"**

M.Ağasıyeva deyir ki, Xırdalan İcra Şöbəsinin rəisi Füzuli Hüseynovun qəbulunda olub, üzləşdiyi qanunsuzluqlar haqda məlumat verib və ölçü götürülməsini tələb edib: "Rəisləri də dedi ki, burada söyüş adı danışıqdır".

M.Ağasıyeva deyir ki, ötən 3 il ərzində F.Hüseynovun qəbulunda 20 dəfə olub, amma məhkəmə qərarı icra edilməyib: "Mən ədliyyə nazirindən xahiş edirəm, məhkəmə qərarının icrasını digər icra şöbəsinə tapşırsın və icrasını şəxsi nəzarətinə götürsün".

***P.S*** Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 137 (6458) 23 iyun 2016

**Hazırda dünyanın diqqəti Amerika Birləşmiş Ştatlarında keçiriləcək prezident seçkilərinə yönəlib. Əsas namizədlərin bir-biri ilə gərgin mübarizəsi, verdikləri açıqlamalar və onun təsiri ilə dəyişən qüvvələr nisbəti Azərbaycan daxil olmaqla, bütün ölkələrin siyasi gündəmində mühüm yer tutur.**



# “Hillari Klinton az fərqlə də olsa, noyabrda qalib gələcək”

## ABŞ dövlət katibinin Bakıdakı tanışı **Bəxtiyar Hacıyev:** “Amerika 90-cı ildən bəri qadın prezidentə hazır idi”

*Musavat.com mövzu ilə bağlı Amerika siyasətinə bələd olan, Hillari Klintonla şəxsən görüşmüş gənc fəal Bəxtiyar Hacıyevlə söhbətləşib. B.Hacıyevin baxışı ilə Amerika seçkiləri, oradakı vəziyyət, namizədlərin şansını qiymətləndirdik.*

***- Dünyanın gözü Amerikadakı seçkilərdədir. Və seçkilərdə qüvvələr nisbəti, ayrı-ayrı namizədlərlə bağlı üstünlüklər tez-tez dəyişir. Bu, təkcə ölkədəki demokratik ab-havanın nəticəsidir, yoxsa dünyada seçki dönəminin uzun olması ilə bağlıdır?***

- Birincisi, ABŞ-dakı seçkilər prosesi çox uzun və müəyyən qədər yorucu, bəzi tərəflərinə görə isə ədalətli sayılmaya biləcək bir prosesdir. Təsəvvür edin ki, 4 illik prezidentlik müddəti üçün 2 ilə yaxın seçki kampaniyası aparılır. Əvvəlcə ilkin seçkilər, sonra isə əsas seçkilər. Bu zaman hər iki partiyanın ilkin seçki qaydalarına görə, bəzən milyonlarla seçicinin səsindən yüzlərlə supernümayəndənin səsi daha həlledici ola bilir. Bu, məsələnin birinci tərəfidir. Hər seçkidə ABŞ ictimaiyyətini narahat edən müəyyən məsələlər namizədlər arasında kontrast yaratmağa, onlardan bəzilərini önə çıxarıb, bəzilərinə olan dəstəyin azalmasına səbəb ola bilir. Məsələn, səhiyyə sığortası, silah alışı üçün icazənin verilib-verilməməsi, terrorizmlə mübarizənin necə aparılması və s. Bəzən də seçkidə ən çox müzakirə olunan və namizədləri önə, yaxud arxaya aparan mövzular Azərbaycan cəmiyyəti üçün təəccüblü mövzular ola bilər. Məsələn, gey və lezbiyanlara evlənmək hüququ verilməlidirmi, aborta münasibət necə olmalıdır və s. Bu məsələlər ABŞ seçkilərində həlledici ola bilir. Son zamanlar isə terrorla mübarizə, seçki sisteminin maliyyələşdirilməsi, silah satışı ilə bağlı namizədlərin fərqli mövqeləri onlara olan dəstəyə təsir edir.

***- Donald Tramp namizədliyini elan edən vaxt başda Amerika cəmiyyəti olmaqla, bir çox ölkələrdə onun şansı cüzi qiymətləndirilirdi. Adətən tanınmış siyasətçilər, Konqresdə olan simaların prezident seçilmək şansı daha çox olur. Tramp Konqresdə də təmsil olunmur. Sadəcə, böyük varidatı olan mediatik bir insan kimi tanınırdı. Nə baş verdi ki, Amerika cəmiyyəti onunla bağlı fərqli mövqe ortaya qoydu?***

- ABŞ-da son bir neçə prezident seçkilərində bir tendensiya müşahidə edilir. Seçicilər uzun illər Vaşinqtonda çalışmış, siyasi establişment üzvü kimi tanınan siyasətçilərdən daha çox siyasi sistemdən kənarda sayılan şəxslərə dəstək verməyə üstünlük verirlər. Məsələn, 2008-ci ildəki seçkilərdə demokratlardan Co Bayden, Con Edvards, Hillari Klinton, respublikaçılardan Con Makkeyn kimi təcrübəli şəxslər iştirak etsələr də, ən populyar namizəd cəmi 2 illik senatorluq təcrübəsi olan Barak Obama oldu. “Dəyişiklik” mesajı ilə seçkiyə qatılan Barak Obama qalib və ABŞ prezidenti oldu. 2016-cı il seçkilərində də demokratlar arasında dəyişikliyə, inqilaba çağıran Berni Sanders böyük bir dəstək və milyonlarla insanın səsini qazandı, heç kimin gözləmədiyi qədər donorların kiçik ianələri ilə çox uğurlu kampaniya apardı. Eləcə də Respublikaçılar Partiyasından daha təcrübəli, tanınmış siyasətçilər seçkidə iştirak etsə də, sistemdən kənar, özünü xalqın adamı, sadə insan kimi təqdim etməyi bacarmış Donald Tramp partiyanın namizədi oldu. Bu, birinci növbədə onu göstərir ki, ABŞ seçiciləri indiki ABŞ establişmentindən daha çox, kənardan sistemi dəyişməyə çalışanlara dəstək verməkdə maraqlıdırlar. İkincisi, ABŞ seçkilərində qorxu və nifrət, qəzəb də çox önəmli rol oynayır. Tramp qeyri-leqal immiqrantlara, müxtəlif dini qruplara hücum etməklə bu qorxu, qəzəbi daha da alovlandırdı və özünə dəstək qazandı.

> **“Onun prezidentliyi dövründə postsovet məkanında ərazi münaqişələrinin həllində yeni bir mərhələ gözləyə bilərik”**

***- Bəli, elə bundan danışaq. Onun bu mövqeyi xeyli tənqid də alıb. Amma qısa müddət öncə bir əfqanın gey klubda törətdiyi qətliam sanki onun bu mövzudakı mövqeyini cəmiyyətə təsdiqlədi və nüfuzunu artırdı... Siz necə düşünürsüz?***

- Seçki ilində 9 sentyabr hadisələrindən sonra ən böyük silahlı qətliam, terrorun baş verməsi seçkiyə birbaşa təsir etməli idi. Ancaq sonda bu təsirin kimin xeyrinə, kimin əleyhinə çevriləcəyini demək çətindir. Hər iki partiyanın namizədləri bu hadisədən öz mövqelərini gücləndirmək üçün istifadə etməyə çalışırlar. Hillari Klinton silahların asanlıqla satılmasının əleyhinədir, Tramp isə lehinə. Klinton müsəlmanlara qarşı yumşaq, qucaqlayıcı mövqe tutur, Tramp isə əksinə. Qətliamdan dərhal sonra Tramp özünün haqlı olduğunu bildirən mesajlar yayımlamağa başladı. Klinton isə hər hansı bir şəxs asanlıqla silah əldə edə bilərsə, belə hadisələrin təkrarlana biləcəyini vurğuladı, silah satışının əleyhinə olmasını bu hadisə ilə yenidən gündəmə gətirib, haqlı olmasını göstərməyə çalışdı. Çoxları müzakirələrin belə dayanacağını gözləsə də, Tramp başqa bir arqumentlə seçki kampaniyasına davam etməyə başladı. O bildirdi ki, əgər silah satışı daha da asan olsaydı, həmin gey klubda kimsə öz üzərindəki silahı çıxarıb terrorçunu zərərsizləşdirə bilərdi. Görünən odur ki, bu hadisədə buna bənzər arqumentlər hər iki qərargah tərəfindən düşünülüb, özlərinin haqlı olmasını əsaslandırmağa çalışacaqlar. Ancaq ilkin mərhələdə bu hadisə ilə Tramp müsəlmanlara, radikal dini qruplara qarşı öz qəzəbli auditoriyasının və silah lobbisinin dəstəyini daha da möhkəmləndirmiş oldu.

***- İllər öncədən Amerika siyasətini təhlil edənlər deyirdilər ki, Amerika qadın prezidentə və qaradərili prezidentə hazır deyil. Sonuncu Obamanın timsalında baş verdi. Hillari Klintonun timsalında Amerikanın qadın prezidenti ola bilərmi, sizcə? Onun şansını nə qədər qiymətləndirirsiz?***

- Zənnimcə, ABŞ cəmiyyəti hətta 90-cı illərin əvvəllərindən buna hazır idi. Sadəcə olaraq, qaradərili və ya qadın namizədlərdən uyğun və uğurlusu ortaya çıxmamışdı. 2007-ci ildə ABŞ-a təhsil almağa gedəndə öz müşahidələrimdən deyə bilərəm ki, 2008-ci ildə ABŞ cəmiyyəti həm qaradərili, həm də qadın prezidentə hazır idi. Ancaq Obamanın uğurlu kampaniyası, onun sistemdən kənar namizəd olması, dəyişiklik mesajı ilə seçkiyə getməsi onun xeyrinə işlədi və əvvəlcə Klintona, sonra isə Makkeynə qalib gələrək prezident oldu. Klintonu isə məğlub edən səbəblərdən biri onun prezident xanımı olması idi. Bir çox seçicilər “Ata Buş, sonra ər Klinton, sonra oğul Buş, sonra xanım Klinton olmaqla, ard-arda iki ailə tərəfindən idarə edilmək istəmirik” deyirdilər. Yəni Klintonun qarşısında duran maneə onun qadın olması yox, daha çox keçmiş birinci xanım olması idi.



> **“Daha öncə Hillari Klintonun qarşısında duran maneə onun qadın olması yox, keçmiş birinci xanım olması idi”**

***- Yəni doğrudanmı Amerika kişini qoyub bir qadına səs verə bilər?***

- Zənnimcə, Amerika cəmiyyəti bu mərhələni çoxdan keçib. Hətta qadınlar belə səslərini Klintona, yaxud digər qadın namizədə sırf qadın olduqları üçün yox, namizədin keçmişinə, keçmiş fəaliyyətinə və bu gün səsləndirdiyi seçki mesajlarına, verdiyi vədlərə görə verirlər. Noyabrda keçiriləcək əsas seçkilərdə də böyük əksəriyyət namizədlərə səslərini onların cinslərinə görə yox, təcrübələri, xarakterləri və verdikləri seçki mesajlarına görə verəcəklər.

***- Yaxşı, məsələni başqa cür qoyaq. Qadın prezident, xüsusən də bu, Hillari Klintondursa, Amerikanın həyatını necə dəyişə bilər?***

- İndiki mərhələdə namizədlər arasındakı fərqi, kontrastı onların cinsi ilə yox, təcrübələri ilə dəyərləndirmək lazımdır. Məncə, həm demokratlardan, həm müstəqillərdən, həm də respublikaçılardan bir çox insan Hillari Klintonun senator, birinci xanım, dövlət katibi kimi təcrübəsi ilə, Trampın iş adamı kimi təcrübəsini, dövlət adamı kimi isə təcrübəsizliyini görürlər. Klintonun müxtəlif dünya liderləri ilə ən ağır məsələlərdə apardıqları danışıqları da xatırlayırlar, Trampın ziddiyyətli mesajlarını da. Onlar Klintonun miqrantlara, müxtəlif dini azlıqlarla olan münasibətinin də Amerikaya nə verəcəyini bilirlər, Trampın qəzəb püskürməsinin nə ilə nəticələnə biləcəyini də. Düşünürəm ki, seçicilər bunlara əsasən səs verəcəklər və yenidən hər hansı bir böyük hadisə, sürpriz məsələ olmasa, Klinton az fərqlə də olsa, noyabrda qalib gələcək. Klinton hələ birinci xanım olduğu dövrdə həyat yoldaşı Bill Klintonun apardığı iqtisadi islahatları da, dövlət katibi işlədiyi zaman apardığı xarici siyasəti də, Obama administrasiyasında çalışdığı zaman Obamanın başlatdığı bir çox işləri, o cümlədən səhiyyə sektorundakı islahatları da davam etdirəcək. ABŞ prezidenti olmaq iş təcrübəsi keçmək üçün bir yer deyil, andiçmədən dərhal sonra Oval Ofisdə mühim qərarlar verəcək qədər təcrübə olmalıdır və bu təcrübə iki namizəddən Klintonda var. Çoxları onu sevə, başqaları sevməyə bilərlər, ancaq hazırda qalan namizədlər arasında oval ofisdə oturub ilk gündən doğru qərarlar verə biləcək tək namizəd Hillari Klintondur.

> **“Bir çox insanlar Hillari Klintonun senator, birinci xanım, dövlət katibi kimi təcrübəsi ilə, Trampın iş adamı kimi təcrübəsini, dövlət adamı kimi isə təcrübəsizliyini görürlər”**

***- Bəs bu seçkilərin nəticələri Azərbaycana nə vəd edir? Prezidentin kimliyi ölkəmizin gələcəyinə hansı formada təsir edə bilər?***

- Tək Azərbaycanla bağlı yox, ABŞ prezidentinin kim olması bütün dünyaya təsir edə bilər. Məsələn, prezident öz vitse-prezidentini, dövlət katibini, bir çox başqa postlarda olan şəxsləri müəyyənləşdirir. Onlar isə ABŞ-ın xarici siyasətində necə davranılacağını müəyyənləşdirirlər. Əgər C.Buş dönəmində sərt gücə üstünlük verilirdisə, müharibə qərarları rahatlıqla alınırdısa, Obama dönəmində yumşaq gücə, əməkdaşlığa, dialoqa, sülhə meyllər hiss olunurdu. Obama dönəmində İran və Kuba kimi ölkələrlə diplomatik münasibətlər quruldu. ABŞ-ın növbəti prezidentinin kim olması da onun administrasiyasının xarici siyasətini müəyyənləşdirəcək. Ancaq düşünmürəm ki, məhz Azərbaycanla bağlı hansısa fərqli bir siyasət formalaşacaq, yaxud hansısa namizəd region ölkələrinə bir münasibət, Azərbaycana isə müstəsna başqa siyasət tətbiq edəcək. Azərbaycan kiçik ölkədir və ABŞ-ın növbəti prezidentinin regionumuzla bağlı verəcəyi qərarlar Azərbaycana təsir edəcək. Məsələn, ayrıca Qarabağ münaqişəsinin həllində fərqli mövqe yox, postsovet məkanındakı bənzər ərazi münaqişələrində ümumi bir siyasət gözləyə bilərik və bu siyasət Azərbaycana təsir edə bilər. Donald Tramp prezident seçilərsə, bu siyasətin necə olacağını indidən demək çətindir. Ancaq Klinton təcrübəli, dialoqa, sülhə, əməkdaşlığa meyilli siyasətçidir və dövlət katibi olduğu müddətdəki fəaliyyətindən də müşahidə edib deyə bilərik ki, onun prezidentliyi dövründə postsovet məkanında ərazi münaqişələrinin həllində yeni bir mərhələ gözləyə bilərik.

**❑ Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 137 (6458) 23 iyun 2016

# Siyavuş Novruzovdan İqbal Ağazadəyə sərt cavab

## "Harada dairə boşaldısa, gedib oradan namizədliyi vermək ciddi siyasətçilər üçün anormal bir haldır"





**90 saylı Ağdaş seçki dairəsi üzrə Milli Məclisə keçirilən təkrar seçkilər başa çatsa da, müzakirələr və mübahisələr davam edir.**

Seçkilərdə 1 yer uğrunda 7 namizəd mübarizə aparıb, 85,56 faiz səslə Yeni Azərbaycan Partiyasının namizədi Cavid Osmanov qalib elan edilib.

Ümid Partiyasının namizədi İqbal Ağazadənin isə 7,84 faiz səs yığdığı elan edilib. İ.Ağazadə nəticələrlə razılaşmır və seçkilərin YAP-ın namizədinin xeyrinə saxtalaşdırıldığını iddia edir. Onun açıqlaması isə mübahisəyə səbəb olub.

YAP icra katibinin müavini Siyavuş Novruzov namizədlərinin daha çox səs qazanmasına və ümumilikdə Ağdaşda keçirilən seçki ilə bağlı bildirmişdi ki, İqbal Ağazadənin həmin dairədən deputat seçilmə şansı sıfıra bərabər olub. Bu fikrin qarşılığında isə İqbal Ağazadə "Yeni Müsavat"a açıqlamasında Siyavuş Novruzovun seçki düşüncəsinin bu qədər olduğunu bildirərək, onun hələ "molotov kokteyli" ilə kotleti ayıra bilməməsini söyləmişdi.

**İqbal Ağazadənin bu fikirlərinə Siyavuş Novruzov sərt cavab verib.**

**O, musavat.coma açıqlamasında bildirdi ki, Ağdaşda seçki azad, demokratik və ədalətli keçirilib:** "Seçkidə Yeni Azərbaycan Partiyasının namizədi qələbə qazanıb. Namizədimiz həmin rayonda kifayət qədər tanınmış şəxs idi. 7 namizədin içərisində təxminən 19 min səs alıb. O rayonda 16 min nəfər Yeni Azərbaycan Partiyasının üzvüdür. Elə onların qohumları, dost-tanışı hərəsi özü ilə bir nəfər gətirdikdə, kifayət qədər səs eləyir. Bəzən görürsən ki, kimlərsə bir dairədən seçilməyəndə, gedib başqa dairədən namizədliklərini verirlər. Ümumiyyətlə bu, seçkidən başı çıxmayan adamların fəaliyyətidir. Bunlar seçki texnologiyasına uyğun olmayan addımlardır. Çünki seçkidə qələbə qazanmaq üçün ilk növbədə gərək tədqiqat aparasan, həmin yeri öyrənəsən. Yəni orada namizəd kimi görmək istəyirlər və digər bu kimi məsələləri öncədən araşdırmalısan. Bundan sonra ölçü götürüb, addım atmaq lazımdır. Yoxsa elə harada dairə boşaldısa, gedib oradan namizədliyi vermək ciddi siyasətçilər üçün anormal bir haldır. Bu baxımdan da hesab edirəm ki, orada bizim partiyanın namizədindən başqa heç bir ciddi siyasətçi yox idi. Bu səbəbdən də nəticə gözlənilən idi".

**S. Novruzov deyib ki, çıxış edəndə hər kəsin dili sürüşə, hansısa sözü səhv deyə bilər:** "İqbal Ağazadə etikadan kənar fikirlər işlədib. Birincisi, əgər sözün varsa, seçkiyə aid münasibətini bildir. İkincisi, hər bir siyasətlə məşğul olan adam tutarlı faktlar ortaya qoymalıdır. İqbal Ağazadənin, ümumiyyətlə, Azərbaycan ictimai-siyasi həyatından danışmağa haqqı yoxdur. Hamının yadındadır ki, 2003-cü ildə prokurorlara və digər strukturlara öz silahdaşlarının üzünə duran kifayət qədər ifadə verib. Onların həbsinə şərait yaradan da İqbal Ağazadə olub. Bunu edən adam siyasətlə də məşğul ola bilməz. Bir silləyə silahdaşlarının üzünə duran adam başqasında nöqsan axtarmamalıdır. Dünyanın hər bir yerində, Türkiyədə, Amerikada və digər yerlərdə hətta dövlət başçıları belə hansısa sözü çaşaraq səhv deyirlər. Olur da, dil sürüşməsidir. Bu adi bir hal kimi qəbul olunur. Ancaq partiya yoldaşının üzünə durmaq, onu həbs etdirmək çox ciddi və qəbul olunmayan haldır".

❑ **Əli RAİS**

# Cəbhə bölgəsində hərbi təlimlər davam edir

## Zakir Həsənov: "Praktiki olaraq bizim şəxsi heyət düşmənin mövqelərini yarıb keçdi"

**Azərbaycan Silahlı Qüvvələri qarşıya qoyulan məqsədlərə çatmağa tam qadirdir və bu gün keçirilən hərbi təlimlər bunu bir daha təsdiqləyir. Təlimlər bütün hədəflərin dəqiq vurulması ilə döyüş hazırlığının yüksək olduğunu göstərir.**

Kəpəz TV (Region TV) xəbər verir ki, təlimlərdə qoşunların idarəetmə orqanları, qoşun birləşmələri və hərbi hissələrin operativ-taktiki hazırlığı yoxlanılıb.









Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi altında keçirilən təlimlərə 25 min nəfərlik şəxsi heyət, 300-dən çox tank, zirehli döyüş maşınları, 100-dən artıq raket və artilleriya qurğusu, 40-dək hərbi aviasiya, 30-dan çox hava hücumundan müdafiə sistemləri cəlb edilib. Hərbi Dəniz Qüvvələrinin gəmi birləşməsi və Xüsusi Təyinatlı Qüvvələrinin bölmələri də müəyyən edilən hədəflərin dəf edilməsində iştirak edib.

Azərbaycan ordusunun arsenalında olan ən müasir silahlardan istifadə etməklə keçirilən təlimlər ilk dəfə olaraq, havadan pilotsuz uçan aparatlar vasitəsilə də izlənilib.

Təlimlərin əsas məqsədi qoşunların və döyüş sistemlərinin idarə olunması vərdişlərinin təkmilləşdirilməsi, eləcə də ağır şəraitdə müasir ümumqoşun döyüşünün hərbi elementlərinin qarşılıqlı fəaliyyəti və döyüş uzlaşmasının səviyyəsini artırmaq olub.

**Təlimləri izləyən müdafiə naziri Zakir Həsənov deyib:** "Mənim tərəfimdən baş qərargah qarşısında vəzifə qoyulub ki, bütün təlimlər maksimal olaraq döyüş şəraitinə yaxın vəziyyətdə keçirilsin. Qarşımızda duran düşmən, onun mövqeləridir - bu gün keçirilən təlimlər də tam ona uyğun qurulub. Praktiki olaraq bizim şəxsi heyət həmin mövqeləri yarıb keçirdi. Bilirsiniz ki, artıq təcrübəmiz var. Biz onu bir saata yardıq keçdik. Ancaq təbii ki, biz gərək bu təcrübəni təkmilləşdirək".

Təlimlərdə iştirak edən bütün qoşun növləri qarşıya qoyulan vəzifəni tam olaraq yerinə yetirərək şərti düşmən mövqelərini yüksək dəqiqliklə darmadağın ediblər.

**Zakir Həsənov deyib ki, bunu təhlil edəcəklər:** "Hansı məsələlər daha səmərəli, daha yüksək səviyyədə, daha operativ, çevik həll olunmalıdır. Biz onunla bağlı göstərişlərimizi verəcəyik. Ancaq bu gün mən ümumilikdə təlimi yüksək qiymətləndirirəm. Və hesab edirəm ki, bu yarım ildə, 6 ayın bir nəticəsi olaraq, bu təlimlərin qiyməti yüksəkdir".

Müdafiə naziri Zakir Həsənov Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında modernləşən ordunun arsenalındakı silahlarla dünyanın aparıcı dövlətlərinin silahlı qüvvələri səviyyəsində olduğunu da açıqlayıb. Təlimlərin yekunu olaraq fərqlənən hərbi qulluqçular müdafiə naziri tərəfindən mükafatlandırılıb.

# Sabiq komandirdən şok açıqlamalar

## Zahir Həsənov: "Elçibəy prezident seçilən gün bir qrup hərbçi ordunu tərk etmək istədi..."







**Mərhum prezident Heydər Əliyevin çağırışı ilə yaradılan 702 saylı hərbi hissənin 2-ci motoatıcı alayının sabiq komandiri Zahir Şamxal oğlu Həsənov redaksiyamıza müraciət edərək bir sıra faktlar açıqlayıb. Keçmiş komandirin danışdıqlarından aydın oldu ki, 1993-94-cü illərdə Ağdam, Füzuli istiqamətində gedən döyüşlərdə torpaqlarımızın bir hissəsinin azad edilməsində qəhrəmanlıq göstərib.**

Göstərdiyi şücaətlərə görə ona 1994-cü ildə Milli Qəhrəman adı verilməsi üçün təqdimat yazılıb, amma Həsənov indiyə qədər rəsmi şəkildə bu statusu ala bilməyib. Bu barədə danışan sabiq komandir keçdiyi döyüş yolundan danışdı: "702 saylı hərbi hissə yaradılandan sonra oranın 2-ci motoatıcı alayına komandir təyin olundum. 1993-cü ilin sonlarında Ağdam, Füzuli istiqamətində gedən döyüşlərdə düşmənin bütün hücumlarını dayandırdıq. 1994-cü il yanvarın 5-də düşmənə hücum etdik və Füzulinin Əhmədbəyli kəndindən Cəbrayılın Cocuq Mərcanlı kəndinə qədər olan ərazini azad etdik. Əməliyyat zamanı düşmənin külli miqdarda silah-sursatı ələ keçirildi. Biz tərəfdən 3, düşmən tərəfdən isə 80-dan çox hərbiçi həyatını itirdi. Onlarla əsir götürdük. 1994-cü il yanvarın 12-də döyüşdə yaralandım və iki gün sonra Sumqayıtdakı hospitala gətirildim. Bizim batalyon az müddətdə böyük qələbələr qazandı, komandanlığım altında. Həmin hadisələrin üstündən artıq 23 il keçir. Bu döyüşlərdə əsas rolu bizim alay oynadı ki, onun da komandiri həmin vaxt mən idim. 1994-cü ildə batalyon respublikanın ən yaxşı batalyonu elan olunmuşdu. 702 nömrəli hərbi hissənin komandiri polkovnik rütbəsi aldı, mənə isə Azərbaycanın Milli Qəhrəmanı adı verilməsi üçün təqdimat yazıldı. Buna baxmayaraq, bu əmrlərdən biri icra olundu, digərləri isə kağız üzərində qaldı. Bu günə qədər də icrası dayandırılıb. Milli Qəhrəman adı almağımla bağlı təqdimat hazırda Müdafiə Nazirliyindədir. Bu yaxınlarda aldığım məktublardan birində deyilirdi ki, həmin təqdimat komissiyadan keçib və "Azərbaycan bayrağı ordeni" ilə əvəz olunub. Heç kəsdən pul, var-dövlət istəmirik, heç bir vəzifədə də gözümüz yoxdur. Sadəcə olaraq, ordeni versinlər, yaxamıza taxaq. Necə olur ki, keçirdiyimiz o uğurlu əməliyyatlarda balaca belə ulduz qazanılmayıb? 4 mühüm əməliyyatın iştirakçısı olmuşuq. Amma heç kəs nə ad, nə rütbə alıb. Cənab prezidentə müraciət edirəm ki, cəbhədə döyüşən hər kəsin əməyi yüksək qiymətləndirilsin, o cümlədən mənim də".

### "22 il öncə mənə Milli Qəhrəman adı verilməsi üçün təqdimat yazılıb, ordeni versinlər, yaxamıza taxaq"



**Sabiq komandir apreldəki 4 günlük savaşı 23 il öncə keçirdikləri əməliyyatların davamı hesab etdiyini dedi:** "Apreldə uğur qazandıq. 800 hektardan artıq sahə azad olundu. Bu əməliyyatlar bizim apardığımız döyüşlərin davamıdır. Belə əməliyyatlar bizdə ruh yüksəkliyi yaradır. Xalq arasında böyük ruh yüksəkliyi ilə qarşılanır. Ali Baş Komandan nə zaman sərəncam versə, yenə də döyüşlərdə iştirak etməyə hazırıq. Onu qeyd edim ki, bizim vaxtda 300 min hektardan artıq sahə, o cümlədən 22 yaşayış məntəqəsi, bir dənə də şəhər tipli qəsəbə-Horadiz azad olundu. Hər ilin 5 yanvarında Şəhidlər Xiyabanında bu qələbənin ildönümünü qeyd edirik. Televiziyada 702 saylı hərbi hissənin komandirinin və mənim dəfələrlə çıxışım yayımlanıb. Mənim məqsədim vətənə xidmət etmək olub. Döyüşlərdən əlavə, dövlətə qarşı təxribatların da qarşısını almışıq. Elçibəy prezident seçilən vaxt tabeçiliyimdə olan hərbi hissənin bir qrup hərbiçisi batalyonu tərk etmək istədi. Qarşılarını kəsib dedim ki, hara gedirsiniz? Mənə dedilər ki, Etibar Məmmədov prezident seçilmədi, biz gedirik. Onları başa saldım və özlərini də sona qədər hərbi hissədə saxladım. Yəni dövlətə qarşı olan təxribatların qarşısını aldıq. Çünki ordu olaraq, dövlətin siyasətinə qarışmaq olmaz. Əsas vətənin müdafiəsidir".

❑ **Cavanşir ABBASLI**

# Etibar Məmmədovun sirr dolu "qızıl kart"ı...

## "İstiqlalçı"ların liderinə siyasətdən gedişinin müqabilində "biznes pəncərəsi" açılmasının detalları; o, son aylaradək tikinti sahəsində monopolistlərdən biri olub; "Hyatt Regency" hoteli ilə sabiq AMİP sədrini hansı tellər bağlayır...

**Hər il iyun ayında gündəmə gələn şəxslərdən biri də Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) lideri Etibar Məmmədovdur. Nədən ki, o, 1993-cü ildə Əbülfəz Elçibəy hakimiyyətinin devrilməsi prosesində fəal iştirakçı olub. Elçibəyin vəzifəsindən vaxtından əvvəl getməsi üçün ona qarşı "etimadsızlıq layihəsi" birbaşa AMİP tərəfindən hazırlanmışdı. Etibar Məmmədov 4 iyun qiyamı ərəfəsində və ondan sonrakı dönəmdə AXC hakimiyyətinin yıxılması üçün açıq fəaliyyət göstərib...**

Sonrakı illərdə də Etibar Məmmədovun müxalifətçilik fəaliyyəti mübhəmlərlə zəngin olub. 1995, 1998, 2000, 2003-cü illərdə keçirilən prezident və parlament seçkilərində müxalifətin birliyinin alınmamasında onun siyasi iddiaları mühüm rol oynayıb...

Və 2003-cü il seçkilərindən sonra siyasətdən getdiyini bəyan edən Etibar Məmmədov bundan sonra yalnız Cənubi Azərbaycanda gedən proseslərlə məşğul olacağını bildirmişdi. Ritorik desək, Şimalı Azərbaycanla bağlı missiyası artıq başa çatmış oldu, o, Cənubi Azərbaycanı "səhmana salmağa" qərar verdi. Bir qədər sonra isə məlum oldu ki, Güneydəki proseslər də Etibar Məmmədovu ilgiləndirmir; çünki onun bu yöndə heç bir fəaliyyəti nəzərə çarpmadı. Əslində bunun siyasi blefdən başqa bir şey olmadığı öncədən də aydın idi...

Gerçəkliklər ictimai-siyasi həyatla maraqlanan insanlar üçün sirr olmadığından bəlkə bu məsələyə toxunmamaq da olardı. Amma iyun olayları ilə bağlı Etibar Məmmədova jurnalistlər suallar ünvanlayarkən onun köntöy cavablar verməsi, cəmiyyəti, mətbuatı suçlaması, aqressiv davranışlar sərgiləməsi, hətta söyüş janrına keçərək "aydan arı, sudan duru" obrazını yaratmağa cəhd etməsi aşağıda oxuyacağınız faktları yazmağa vadar edir...

***

Etibar Məmmədovun siyasətdən qəfil gedişinin əsl mahiyyəti zaman keçdikcə üzə çıxdı; bəlli oldu ki, Etibar Məmmədova cəmiyyətdə "artıq müxalifətçilik öldü" rəyinin yaranması üçün siyasətdən getməsi müqabilində "biznes pəncərəsi" açılıb. Düzdür, hələ uzun illər öncədən çoxlarına məlum idi ki, Etibar Məmmədovun tikinti biznesi var. Amma de-fakto həmin işlərə Etibar Məmmədovun mərhum qardaşı rəhbərlik edirdi. Etibar Məmmədov siyasətdən gedəndən sonra isə özü birbaşa bu məsələlərə rəhbərlik edib. Yəni öz biznesinin başına özü keçərək, təbii ki, iqtidarın dəstəyi ilə tikinti biznesini genişləndirib. Hətta ora qədər ki, ona Bakı şəhərində müxtəlif yerlərdə çoxmənzilli binalar tikməklə yanaşı, ölkəyə alçipan idxalında monoplistlərdən biri olmağa icazə verilib. Bu barədə müsavat.com-un əldə etdiyi məlumata görə, son aylarda Etibar Məmmədovun alçipan biznesində müəyyən axsama baş verib. Bu da ölkə iqtisadiyyatında, gömrük sistemində həyata keçirilən islahatlar, monopolistlərin əl-qolunun yığılması ilə bağlıdır. Bir tikinti mütəxəssisinin deməsinə görə, alçipan biznesində monopolist olmaq bir il ərzində 10 milyonlarla manat pul qazana bilmək deməkdir... Bu iş ilə isə E.Məmmədov illərlə məşğul olub.



Musavat.com-u bilgiləndirən mənbə deyib ki, bu illər ərzində Etibar Məmmədovun "Şamaxinka" adlanan ərazidəki yanacaqdoldurma məntəqəsi və onun qarşısındakı maşın satışı məntəqəsi də var gücü ilə çalışıb... Bakı şəhərində yol kənarındakı maşın satış məntəqələri hələ illər öncə yığışdırılan zaman Etibar Məmmədovun bu biznesinə dəyilmədi və bu gün də fəaliyyət göstərir...

Mənbəmizin açıqladığı digər bir fakt isə daha maraqlıdır; qaynağımız deyir ki, Etibar Məmmədov uzun illərdir "Hyatt Regency" hotel və əyləncə mərkəzinin xidmətlərindən sərhədsiz istifadə edən müştərisidir. Bakının ən bahalı hotel və istirahət komplekslərindən biri olan "Hyatt Regency" hotelindən "öz obyekti kimi" istifadəsi üçün isə Etibar Məmmədova təxminən 10 il öncə ömürlük "qızıl kart" verilib. Bu kartı ona "Hyatt Regency"nin keçmiş rəhbəri, bir neçə il öncə Azərbaycandan qovulan iş adamı Paulo Pərviz təqdim edib. Əlbəttə, bunu P.Pərviz icazəsiz etməyib, çox güman ki, o, tapşırıq icra edib. Mənbə bunu belə ifadə etdi: **"Pərvizə deyilib ki, Etibar Məmmədova ömürlük bir kart ver, gəlsin orada üzsün, dincəlsin, əylənsin, bütün VİP xidmətlərdən istifadə etsin, başı qarışsın, siyasətdən gedib, darıxmasın"...**

Bu kartın Paulo Pərvizin öz hədiyyəsi olmadığını bir məqam təsdiqləyir: P.Pərviz arzuolunmaz şəxs kimi, bir neçə il öncə Azərbaycandan kənarlaşdırıldı. "Hyatt Regency" bu gün tamamilə ayrı adamlara məxsusdur. Amma Etibar Məmmədovun "qızıl kart"ı özündə qalır, etibarlıdır və hazırda "Hyatt Regency"nin bütün xidmətlərindən pulsuz olaraq yararlanır...

Xalqın çiyinləri, silahdaşlarının faciəsi üzərində öz komfortunu qurmasına rəğmən isə o, keçmişdəki səhvlərinə görə üzr istəmək əvəzinə, ondan haqlı olaraq hesabat tələb edənləri aşağılamağa, təhqir etməyə və bununla mətləbdən yayınmağa çalışır...

**Heç şübhəsiz ki, bütün bunlar elə bu şəkildə də tarixə yazılır...**

❑ T.ƏHMƏDLİ

# Ermənistanda yeganə Azərbaycan bayrağı olan yer

**Ermənilərin işğalçılıq siyasəti nəticəsində Ermənistanla Azərbaycan arasında bütün diplomatik münasibətlər pozulub. Dağlıq Qarabağın işğalından əvvəl isə Ermənistanda yaşayan yüz minlərlə soydaşımız dədə-baba yurdundan qovulub. Ermənistanın düşmənçilik siyasəti nəticəsində qədim türk məskənlərinin adları dəyişdirilib, məscidlər, Qərbi Azərbaycandakı qəbiristanlıqlar belə yerlə-yeksan edilib. Belə olan təqdirdə Ermənistan ərazisində Azərbaycan bayrağına da rast gəlinməsi heç inandırıcı deyil. Amma sən demə, Ermənistanda bir yerdə Azərbaycan bayrağı dalğalanırmış...**



Modern.az-ın əldə etdiyi məlumata görə, həmin yer İrəvandakı "Ararat" konyak zavodunun sexlərinin birindədir. Burada "Sülh Çəlləklər"inin yanındakı Azərbaycan bayrağı Ermənistan ərazisində yeganədir.

Konyak dolu çəllək bura 1994-cü il may ayının 12-də atəşkəs haqqında Bişkekdə saziş imzalanandan sonra qoyulub.

Ermənilərin iddiasına görə, həmin çəlləyin ağzı Qarabağ münaqişəsi birdəfəlik həll olunandan sonra açılacaq. Hətta deyilənə görə, hamı bu çəlləyin tez açılmasını və oradakı konyakın içilməsini istəyir. Görünür, ermənilər münaqişənin tez həlli haqda düşünəndə işğal etdikləri əzəli Azərbaycan torpağında ikinci erməni dövləti yaratmaq xülyalarının gerçəkləşməsini nəzərdə tuturlar.

Azərbaycan tərəfi isə bir addım torpağın separatçı rejimin işğalı altında qalmamasına, nəyin bahasına olur-olsun geri qaytarılmasına israrlıdır. Bu qələbə nə zamansa çalınacaq və belə olan halda indi yeganə Azərbaycan bayrağının dalğalandığı yerdə saxlanan çəlləklərdəki o konyakı ermənilər heç vaxt içə bilməyəcəklər...

# Cübbəli Ahmet "İmparator"a qarşı



**Samir SARI**

**Deyirdilər, futbolçular oruclu olublar, ona görə uduzublar. Əvvəlcə elə bilirdim, zarafat edirlər. Son vaxtlar yeri gəldi-gəlmədi bu cür zarafatları çox edirlər axı.**

Namxuda olmasın heç, sanki sosial şəbəkədə şən və hazırcavablar klubu üçün gülməli ssenarilər yazan müəllif qrupu fəaliyyət göstərir, hər sözə bir söz qoşurlar, nəticədə adam bilmir nə gerçəkdir, nə zarafat.

Məsələn, Türkiyə millisinin ikinci məğlubiyyətindən sonra qapıçı Volkan Babacanın adından kapslar paylaşmışdılar, guya ki, qapıçı imamdan soruşur: "Hocam, bu qədər qol yeyirəm, orucum pozulurmu?"

Əlbəttə, bu, gözlə görünən zarafat idi, aydın məsələdir ki, "qol yemək" məcazi söhbətdir, o, orucu pozmaz. Amma elə söhbətlər də vardı ki, yarızarafat-yarıgerçək idi, adam çaş-baş qalırdı.

Ümumiyyətlə, oruclu adamın çıxıb futbol oynaması qədər dünyada ikinci bir absurd məşğuliyyət olmadığına görə çox adama elə gəlirdi ki, bu qədər də qeyri-ciddi hərəkət olmaz. Bu, "ağlasığmaz işlər" qrafasından idi.

Hər il sərasər oruc tutanları demirəm, bircə gün səhər-səhər evdən ac çıxmış adam durumu aydınlığı ilə izah edə bilər. Məsələn, mən özüm tələbə vaxtı pambıq toplanışında bir gün yatıb qalmaq səbəbindən tarlaya ac getmişdim, iki saat birtəhər tab elədim, amma saat 11-də düşərgəyə qayıtmalı oldum. Yolda bir ağsaqqal söz soruşdu, guya ki, cavab verdim, adam qayıdıb dedi, ay oğul, səhər-səhər çörək yeməmisənmi, bir az bərkdən danış.

Yəni adicə səhər yeməyi yeməyən adamın səsi o qədər zəif çıxır ki, bunu kənardakılar belə sezir. O da ola, adam nəinki səhər-səhər yeməyib, üstəlik, şirinçay və ya adi su da içməyib, gecə saat 4-də yediyidir, indi axşamdır, hələ də ac-susuzdur, onda nə hey-hərəkət olacaq. O, heç "abi, topu şuraya at", ya da "ulan, Volkan, nerdə yatmışsın" deyə çığıra da bilməz.

Camaat idman yarışlarına qatılanda adama əlavə güc, enerji verən preparatlar (çox vaxt qadağan olunmamışından, bəzən yasaqlanmışından) qəbul edir və çıxıb at kimi qaçır, kenquru kimi tullanır, qatır kimi yük qaldırırlar. Bunun qarşısında 17 saat ac-susuz, enerjisiz qalmış idmançıdan hansı performans gözləmək olar?

Budur, məlum olur ki, gerçəkdən də türkiyəli futbolçular oruc tuturmuşlar. Bəlkə də heç hamısı tutmurmuş. İkisi tuturmuşsa, bəsdir. Bu, o komandanın meydana 9 nəfərlə çıxması deməkdir. Yox, əgər 11 nəfərdən 5-ı orucdursa, demək, komandanın yarısı meydanda yoxdur.

İntəhası, Türkiyədə və ölkəmizdə Cübbəli Ahmet kimi tanınan din xadimi Türkiyə milli yığmasının baş məşqçisi Fatih Terimə qəzəblənib ki, niyə futbolçularına oruc tutmağı qadağan edir. Deyilənə görə, Cübbəli Terimə zəng edərək deyib ki, sən kimsən, gedib məşqçiliyinlə məşğul olsana, ay adam.

İndi yazıq "İmparator" odla suyun arasında qalıb, futbolçular oruc tutub uduzurlar, 80+9 milyon söyür, oyunçularına orucu qadağan edir, bu dəfə də din xadimləri küfr edirlər.

İndi bu adam nə eləsin? Məşqçliyi ilə necə məşğul olsun ki, əlində məşq etdirməyə gümrah oyunçu yoxdur.

Əslində burda qəliz bir şey yoxdur, bu konflikti çözmək üçün üləma və müctəhidlərə müraciət etmək lazım deyil. Hər şey aydındır.

Birincisi, futbolçular səfərdə olduqlarından və konkret enerji tələb edən iş gördüklərindən oruc tutmaya bilərlər, çox inanclıdırlarsa, qayıdıb qəza orucu tutarlar.

İkincisi, orucdan vaz keçməyərək, sıfır enerji çatışmazlığı üzündən uduzacaqlarsa, onsuz da yedikləri söyüş ovqatlarını da pozacaq, oruclarını da.

Bəli, hazırda durum böylədir. Bir zamanlar bu cür xəbərlər iranlı idmançılardan gələrdi, indi Türkiyə futbolçularından gəlir.

Onlar səmimi qəlbdən inanırlar ki, bu dini ayini Allahın rizası ilə, Tanrının tələbi üzrə icra edirlər və bunun qarşılığında Allah da onlardan razı qalır, kömək edir. Amma futbolçuların məruz qaldığı iki acı məğlubiyyət göstərdi ki, aclıq və enerjisizlik üzündən heyi olmayan futbolçulara kömək etmək çətindir, Allahlıq məsələ deyil.



# İylənmiş yazı

Zamin HACI
zaminhaci@gmail.com

**Bakıdakı Formula-1 yarışının alman qalibi Niko Rosberq deyib ki, hər şey yaxşı idi, bircə tualetdə növbələr olmasaydı. Deyib gələn dəfə tualet sayını artırın. Gərək biz bunu nəzərə alaq, Yaponiya səfirliyindən xahiş edək, Beyləqanda məktəblilər üçün tikdikləri tualetlərdən Bakıda da tiksinlər.**

Ancaq insafən tualet mədəniyyəti sahəsində ölkəmizdə xeyli inkişaf vardır, paytaxtda, həmçinin ölkəmizin başqa ərazilərində son illərdə xeyli dərəcədə təmiz sanitar qovşaqları, tualetlər yaradılmışdır. Bu da uğurlu daxili siyasətin, regionların inkişafı proqramının tərkib hissəsidir. Müsbət tualetləri də görməyi bacarmalıyıq, həyat ancaq yerini isladanlardan, şalvarını dolduranlardan ibarət deyil.

Misal üçün, mənim yaşadığım Binəqədi rayonunda icra hakimi Xaləddin müəllim "Təmiz Binəqədi" projesini elan edəndən bəri bütün kanalizasiya suları küçələrimizə axıdılır. Demək olar, yay-qış, gecə-gündüz bu hal təkrar olmaqdadır. Təmirçilər gəlirlər, bir az kanalizasiya lyuklarında qurdalanıb gedirlər, xeyri olmur. Camaat "Azərsu"ya, icra hakimiyyətinə, baş prokurora, ASAN-xidmətin kanalizasiya şöbəsinə, BMT-yə, ABŞ-ın Gürcüstandakı səfirliyinə, NASA-ya, Putinə, AMEA Zoologiya İnstitutuna və başqa səlahiyyətli orqanlara şikayət yazmaqdan bezmişdir, lakin heç bir dəyişiklik mümkün deyildir. Hətta biz fikirləşirik yəqin "Azərsu" rəhbərliyi, o cümlədən idarənin tərkibində yaradılmış, bir az səhv oxusan adamı pis fikirlərə salan "Sukanal" idarəsinin əməkdaşları öz təbii ehtiyaclarını küçəyə edirlər, yəqin buna görə bizim şikayətləri anlamırlar.

Burda bir haşiyə çıxım, "Sukanal" idarəsinin məni necə çaşdırdığını izah edim. Bir-iki il qabaq evə gələndə gördüm qapının ağzında qəbz var, üstündə də yazılıb ki, "sukalar" idarəsinə filan manat filan qəpik borcunuz vardır, tez ödəyin. Çaşdım qaldım, dedim, yəqin bizdə kimisə satmaq rəsmən qanuna salınıb, mən də satmadığım üçün borcum yaranıb. *(O vaxt polisə ictimai yardım, mülki işçilər qanunu hələ yox idi)*. Sonra diqqətlə oxuyub bunun "Sukanal" olmasını görmüşdüm. Kanalizasiya idarəsinin adını dəyişib bu cür qoyanlara nə deyəsən?

Bax, indi mən həmin "Azərsu" rəhbərliyindən soruşmaq istərdim ki, madam il uzunu bizim kanalizasiya küçələrimizə axır, uşaqlarımız iylənmiş suların içində oynaşırlar, nəfəs almaq çətinləşir və sairə - bəs bizdən su pulu ilə birgə kanalizasiya xərcləri pulunu niyə alırsınız? Ayıb deyilmi? *(Ayıb olmadığını bilirəm, yazının həcmini artırmaq üçün yazdım)*. Hələ bəs deyilmiş kimi, keçən ay bu işin ödənişlərində də artım etdiniz.

Bir vacib məsələ isə "Azərsu"nun sayğac olmayan evlərə 4 nəfərlik ümumi ödəniş hesablamasıdır. Guya Nazirlər Kabinetinin belə qərarı var. Evdə qeydiyyatda reallıqda 1-2-3 nəfər olsa belə, idarə 4 nəfərin pulunu qopardır. Etiraz edənə isə yaşayış yeri arayışını JEK-dən almaq, hər il bunu təzələmək tələbi qoyulur. İnsanlar da "ziyanın yarısı" fəlsəfəsiylə, JEK-in çirkin üzünə rüşvət verməkdənsə, əlavə su pulu ödəməyi seçir. Bəlkə də azərbaycanlıların artımına görə "Azərsu"ya borcluyuq. İnsanları iki-üç nəfərlik ailələrini dördnəfərlik etməyə həvəsləndirirlər. Minnətdarıq. Xahiş edərdik hər məhəllədə kanalizasiya sularını yığmaq üçün hovuzlar düzəldilsin, yayda kənarında istirahət edək.

2010-cu ildə Britaniyanın tanınmış qəzeti "Tayms"ın apardığı sosioloji araşdırma sonucunda insanlar "Bəşəriyyətin 10 ən böyük kəşfi" sırasında unitazı ilk onluğa salmışdılar. Birinci yerdə təkər, beşinci sırada kompüter idi, unitaz isə hətta 10-cu yerə çıxan daxili yanma mühərrikini qabaqlayıb 9-cu olmuşdu. Deməyim odur ki, kanalizasiya məsələsinə ciddi yanaşmaq lazımdır.

İndi söz əlaqədar təşkilatlarındır - gəlin siz də küçəmizə "çiş" eləyin. *(Çoxdan əlaqədar təşkilatları görmürdünüz, dedim bəlkə darıxarsınız)*.

# Ermənilərin Qarabağ narahatlığının gerçək səbəbi

**Prezidentlərin Sankt-Peterburq görüşündən əvvəl Ermənistanda başlayan ajiotaj indi də davam edir. İşğalçı ölkənin bəzi ekspertləri Rusiyanın İrəvanı satdığını, Kremlin Bakı ilə Qarabağ razılaşmasına getdiyini iddia edərək daxildəki müharibə tərəfdarlarını daha radikal mövqe sərgiləməyə sövq edir. Ermənistan mətbuatında da aprel savaşından sonra müşahidə olunan anti-Rusiya kampaniyası kəsilmək bilmir.**

Bu arada ABŞ-ın özəl kəşfiyyat araşdırmaları mərkəzi "Stratfor" Peterburqda Azərbaycan və Ermənistan prezidentləri arasında keçirilmiş son görüşün "azacıq ümid yaratdığını", ancaq münaqişənin kökündə dayanan məsələlərin həll edilməmiş qaldığını yazıb. Virtualaz.org xəbər verir ki, mərkəzin təhlilində iyunun 20-də Sankt-Peterburqda keçirilmiş görüşdən sonra verilmiş bəyanatda münaqişə zonasına daha çox beynəlxalq müşahidəçinin cəlbinə çağırdığı xatırladılır. Bəyanatda vurğulanır ki, danışıqların bütün tərəfləri mövcud atəşkəs sazişindən razıdır. "Ancaq sülhə yönəlik bu diplomatik gedişlərə baxmayaraq, münaqişənin kökündə duran məsələlər həll edilməmiş qalır" - mərkəz bildirir. Qurum vurğulayır ki, liderlərin sülhpərvər vədlərinə baxmayaraq, Ermənistan regiona de-fakto nəzarəti saxlamağa çalışır, mübahisəli ərazinin yerləşdiyi Azərbaycan isə buna qarşı çıxır. Aprel döyüşlərindən sonra Bakı nisbətən kiçik ərazini tutsa da, bu toqquşmalar dondurulmuş münaqişəni alovlandırdı, diplomatik vasitəçilik prosesini də gücləndirdi.

Bəzi ekspertlərə görə, 2016-cı ilin aprelində Azərbaycan və Ermənistan silahlı qüvvələrinin təmas xəttində müşahidə olunan gərginlik və Azərbaycan ordusunun uğuru münaqişənin həlli ilə bağlı yeni vəziyyətin yaranmasını şərtləndirib. Üstəlik, Ermənistan anlayır və qəbul edir ki, bundan sonrakı dövrdə danışıqlar prosesini uzatmaq, mövcud status-kvonu qoruyub saxlamaq mümkün deyil, beynəlxalq ictimaiyyət bu mövqeni qəbul etməyəcək. Ermənistanın konstruktiv mövqe nümayiş etdirməkdən başqa çıxış yolu qalmayıb. Ona görə də işğalçı ölkədəki müharibə tərəfdarları çıxış yolu kimi Sərkisyan rejimini devirmək variantını nəzərdən keçirməkdədirlər. İşğalçı ölkə daxilində idarəolunmaz vəziyyətin yarana biləcəyi də ehtimal edilir. Bu vəziyyətdə isə ermənilərin həm Rusiyaya qarşı sərt çıxışlar etməsi, həm də Azərbaycana meydan oxuması məntiqli görünmür. Bu mənada ermənilərin oyun oynadığını düşünənlər də az deyil. Güman olunur ki, bu oyunun oynandığı səhnənin arxasında əslində hakimiyyətinin ömrünü uzatmaq istəyən Sərkisyanın özü dayanıb. Bununla o, Qarabağa görə özünə "təhlükə yarandığı" görüntüsü yaratmaq və daha il yarım postunda qalmaq istəyir.

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a bildirdi ki, bütün bu açıqlamalar gözlənilən idi:** "Bəs onda Ermənistan xarici işlər naziri Nalbəndyan niyə görüşlə bağlı müsbət aşıqlama verirdi? Bundan başqa, görüş ərəfəsində "dövlət çevrilişi" imitasiyası nəyə nəzərdə tutulmuşdu? Yəni bunlar hamısı göstərir ki, Ermənistan kənardan idarə edilən bir dövlətə çevrilib. Sərkisyan hakimiyyəti bu gün sülh yolu ilə həllə imza atsa da, müharibə yolunu seçsə də, devriləcək. Ən optimal variant kimi ermənilərə xeyir verən variant stasus-kvonu saxlamaqdır".

**Politoloq hesab edir ki, bu, Rusiyanı da qane edir:** "Yəni nüfuz davasından tutmuş, silah ixracına qədər Rusiya öz işini görür. Ermənilərin əsas narahatlıqları həm də danışıqlar ərəfəsində Azərbaycan ordusunun keçirdiyi hərbi təlimlərlə bağlıdır. Məlumdur ki, bu təlimlərdə bütün növ qoşunlar iştirak edir və ermənilərin istənilən təxribatı lokal hərbi münaqişə ilə nəticələnəcək və bu da son anda bir neçə yaşayış məntəqəsindən ermənilərin qovulması ilə müşayiət oluna bilər. Bütün bunlar erməniləri narahat edir və onlar da elə başa düşürlər ki, bu, "ruslarla birlikdə yazılan" ssenari əsasında baş verir".



**Arzu Nağıyev:** "Bu, ruslarla birlikdə yazılan ssenari əsasında baş verir"



**Elxan Şahinoğlu:** "Düşmənə sakitlik vermək olmaz"

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə hesab edir ki, müşahidə olunan hay-küy erməni hiyləsidir:** "Guya elə bir atmosfer yaradırlar ki, Rusiya Azərbaycanla anlaşıb, onlar da bundan narahatdırlar. Bu da bizdə yanlış rahatlıq yaratmalıdır ki, bəlkə doğrudan Kreml Ermənistana təzyiq edir. Əgər belədirsə, biz niyə bunun əlamətini görmürük? Sankt-Peterburq görüşü də danışıqlarda irəliləyiş üçün müsbət zəmin yaratmadı".

**E.Şahinoğlu işğalçı ölkədə baş verən qarışıqlığa, ordudakı biabırçı faktlara da diqqət çəkdi:** "Bu, bizim üçün də yaxşıdır ki, düşmənin müdafiə sistemində bu cür problemlər var. Və mən düşünürəm ki, əgər biz 4 günlük savaşda düşmənə bu qədər daxili problem yaratdıqsa, bu istiqamətdə çalışmalarımızı davam etdirməliyik. Yəni yeni hərbi texnika ilə silahlanan ordumuz daima işğalçıya problemlər yaratmalıdır. Düşmənə sakitlik vermək olmaz".

❑ Cavid TURAN




# ATƏT cəbhə xəttində monitorinq keçirdi

**ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq iyunun 22-də Azərbaycan Respublikasının Tovuz rayonunun Ağdam kəndi yaxınlığındakı Ermənistan və Azərbaycan qoşunlarının qarşıdurma xəttində monitorinq keçirilib.**

APA-nın Müdafiə Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, monitorinq insidentsiz başa çatıb.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov və Saymon Tiller, Ermənistan tərəfindən isə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle və Piter Şvedberq keçiriblər.

# Neva danışıqlarının yeni detalları - "kartlar" payızda açılacaq

**Rusiyanın şimal paytaxtında prezident Vladimir Putinin vasitəçiliyi ilə Dağlıq Qarabağa dair aparılmış danışıqlar analitiklərin diqqət mərkəzindədir. Əsas nəzərlər isə təbii ki, bu görüşlərdə hansısa anlaşmanın olub-olmaması, yeni müharibə ehtimalı ilə bağlı detallara yönəlib. Çünki rəsmi açıqlama və bəyanatlar, həmişəki kimi, ümumi və quru diplomatik ifadələrdən ibarətdir.**




# Bakı və Kremlin gizli Qarabağ anlaşması: iki paytaxtın hərbi razılığı var - iddia

## Azərbaycan prezidentinin Sankt-Peterburqdan inamlı qayıtmasının pərdəarxası və atəşkəslə bağlı İrəvanın əsas gözləntisinin fiasko olmasının səbəbi; işğalçının çəkindiyi mərhələli həllin startı verilib; **Putinin müşaviri:** "Daha 2-3 belə görüşdən sonra yekun müqavilə imzalanacaq..."

Bəzi siyasi müşahidəçilərə görə, ola bilsin, proses təzə start götürdüyü və hələlik qapalı rejimdə getdiyi üçün hansısa nəticənin açıqlanması tez hesab edilir. Yəni danışıqların konfidensiallığı məsələsi. Bununla belə, təhlilçilərin, Kremlə yaxın və uzaq mənbələrin şərh və qiymətləndirmələri Peterburq danışıqlarının detallarına müəyyən qədər işıq salmağa imkan verir. Son rəsmi açıqlama və şərhlərə diqqət edək.

***

**Rusiya İctimai Palatasının üzvü, Putinin müşaviri və politoloq Sergey Markova görə, Peterburq görüşü, sadəcə, görüş xətrinə keçirilən görüş olmayıb:** "Görüşdə Qarabağ münaqişəsinin həlli istiqamətində çox ciddi irəliləyiş əldə olunub. Bu, yaxın gələcəkdə qəbul olunacaq qərarın verilməsi üçün keçirilməsi vacib görüşlərdən biri idi. Aprelin əvvəlindəki 4 günlük müharibə göstərdi ki, münaqişə mütləq həll edilməlidir. Bu məsələdə Moskva Bakının mövqeyini birmənalı bölüşür. Rusiya da artıq münaqişənin dondurulmuş vəziyyətdə qalmasının tərəfdarı deyil. Ona görə də Moskvanın son vaxtlar bu məsələdə aktivliyi nəzərəçarpandır. Əlbəttə ki, İrəvan münaqişənin dondurulmuş vəziyyətdə qalmasında maraqlıdır".

**Politoloqun fikrincə, Sankt-Peterburqda prezidentlərin köməkçilərsiz müzakirələr aparması "danışıqların dərin məzmuna malik olduğunun və vacib qərarların qəbul edildiyinin" göstəricisidir.** "Prezidentlər Kazan formulunu müzakirə ediblər. Dağlıq Qarabağ ətrafındakı əvvəlcə 5, daha sonra mərhələli şəkildə 2 rayonun, Ermənistana dəhliz saxlanılmaq şərtilə, Azərbaycana geri qaytarılması, o cümlədən Dağlıq Qarabağla ətraf rayonlar arasındakı bölgəyə sülhməramlıların yerləşdirilməsi müzakirə olunub. Bütün bunlardan sonra Qarabağın statusu ilə bağlı danışıqların aparılması təklifi müzakirə edilib" - Markov bildirib.

**Markovun sözlərinə görə, görüşün detallarının bağlı qalması onu göstərir ki, üçtərəfli görüş həqiqətən real məzmuna malik olub.** "Əgər nə zamansa bir vacib qərar qəbul olunursa, o zaman vasitəçilər bunu gizli saxlayırlar. Hesab edirəm ki, daha iki-üç belə görüş keçiriləcək və bundan sonra yekun müqavilə imzalanacaq. Hələlik görüşlər Kazan formulunun bəndlərindəki fikir ayrılıqlarını aradan qaldırmaq uğrunda gedir. Bu fikir ayrılıqları Ermənistana bir və ya iki dəhlizin verilməsi, ilkin mərhələdə 5-6 və ya 7 rayonun qaytarılması, gələcəkdə referendumun keçirilib-keçirilməməsi, yekun müqavilədə BMT qətnamələrinin qeyd olunub-olunmamasından ibarətdir. Fikrimcə, bu kimi mübahisəli məqamlar yaxın zamanlarda keçiriləcək görüşlərdə öz həllini tapacaq".

***

Bu arada rəsmi Bakı ilk dəfə prezidentlərin Peterburq görüşündə Qarabağ probleminin həllində tərəflərin razılığa gəldiyi məqamları açıqlayıb. ANS TV-nin məlumatına görə, bu haqda Prezident Administrasiyası rəhbərinin müavini Novruz Məmmədov danışıb.

**N.Məmmədovun sözlərinə görə, görüşdə münaqişənin mərhələli həlli ilə bağlı razılıq əldə olunub.** "Bu görüş zamanı münaqişənin mərhələli həllinə üstünlük verildi. Yəni bundan sonra münaqişənin həllində mərhələli şəkildə irəliyə getmək lazımdır. Əvvəlcə Azərbaycanın 5 rayonunun azad olunması, ondan sonra 2 rayonun azad olunması və dəhlizin müəyyən edilməsi. Daha sonra Dağlıq Qarabağın statusunun müəyyən edilməsi. Bu istiqamətdə tərəflər prinsip etibari ilə razılığa gəldilər" - deyə administrasiya rəhbərinin müavini bildirib.

**"Sankt-Peterburqda mərhələli hərbi həll planı üzərində gizli planların razılaşdırıldığına daha çox inanıram". Bunu isə deputat Zahid Oruc axar.az-a bildirib. O, Sankt-Peterburq görüşü ilə bağlı çox mühüm məxfi detallara toxunub:** "Qarabağ danışıqları heç zaman region və kənar dövlətlər tərəfindən indiki qədər böyük diqqət və marağa səbəb olmamışdı. Moskva və Bakı öz aralarında hərbi-siyasi yaxınlaşmanı dərinləşdirməklə "mərhələli hərbi həll" yolunu seçiblər. Bütün hallarda, Putin 5 apreldə müharibənin yeni dalğasını dayandırıb siyasi təşəbbüsü əbədi rəqiblərinə verə bilməzdi".

> **"Bakıya imkan veriləcək ki, kəskin taktiki zərurət olduqda işğal altındakı ərazilərə nəzarəti genişləndirmək üçün apreldəki kimi daha bir əməliyyat həyata keçirə bilsin"**

**Deputat aprel müharibəsindən sonra Qafqaz uğrunda gedən mürəkkəb diplomatik-siyasi davanın gücləndiyi qənaətindədir:** "Hazırda Moskva və Bakı arasında tarixdə heç zaman olmayacaq qədər yaxşı münasibətlər hökm sürdüyündən və əksinə, ermənilər son yüz ildə ruslarla ən pis duruma gəlib çatdığından prezident İlham Əliyev danışıqların məhz belə bir müstəvidə Azərbaycana xeyir verəcəyini proqnozlaşdırır. Əslində hərbi status-kvo dəyişib və onu siyasi cəhətdən tamamlamaq lazımdır. Ona görə prezident Əliyev aprel savaşının nəticələrindən və danışıqların aparıldığı gün 25 minlik silahlı kontingentin təlimlərindən keçərək Peterburqa yola düşmüşdü. Sərkisyan isə ağır Peterburq danışıqlarına 5 generalın - Qarabağın ələ keçirilməsində iştirak edən və özlərini hakimiyyətdə olmağa haqlı sayanların başını vurmaqla, siyasi və hərbi qüvvələr arasında dərin münaqişə ilə getmişdi".

**Sankt-Peterburq görüşünün məxfi xarakterinə rəğmən, onu uğurlu bir prosesin mühüm həlqəsi sayan Zahid Orucməhz Peterburqda mərhələli hərbi həll planı üzərində gizli planların razılaşdırıldığına daha çox inandığını vurğulayıb:** "Bəli, söhbət mərhələli sülhdən getmir. Azərbaycan Rusiyanın fəallığı və bölgənin təhlükəsizliyi üçün dəyişikliklər etmək planlarına qarşı deyil. Ona görə prezidentin Piterdən inamlı qayıtdığını görməmək mümkün deyil. Unutmayaq ki, Qarabağ konflikti Rusiyanın təhlükəsizlik və iqtisadi maraqlarına da güclü zərbə vurur".

***

**Tanınmış rusiyalı politoloq Aleksandr Karavayev də Peterburq görüşünün nəticələrini pozitiv sayır. Onun sözlərinə görə, belə görüşlərdəki müzakirələrin əsas detallarının geniş ictimaiyyətə açıqlanmaması təbiidir:** "Həm də ona görə ki, prezident Vladimir Putin artıq bilavasitə prosesə qoşulub".

Politoloq Ermənistanın atəşkəsə yeni nəzarət mexanizmi ilə bağlı gözləntisinin iflas olduğu qənaətindədir: "Rəsmi bəyanata görə, təmas xəttində müşahidəçilərin sayı artırılacaq. Ancaq Vyana görüşündə anlaşma var idi ki, Minsk Qrupunun ofisi xüsusi texniki avadanlıqlarla gücləndiriləcək və bu da imkan verəcək ki, atəşkəs pozuntularına real qiymət verilsin. Görünür vəsait, pul çatmayıb. Əslində bu, təhlükəsizlik rejiminə necə münasibət bəslənilməsi baxımından Ermənistan üçün olduqca qəribə bir siqnaldır. Azərbaycan üçün isə onun əlamətidir ki, Bakıya imkan veriləcək ki, kəskin taktiki zərurət olduqda işğal altındakı ərazilərə nəzarəti genişləndirmək üçün apreldəki kimi daha bir əməliyyat həyata keçirə bilsin. Minsk Qrupunun nəzarət səlahiyyətlərinin yalnız müşahidəçilərin sayının artırılmasından ibarət olması onu sübut edir ki, texniki vasitələrin quraşdırılması təşəbbüsü öz-özünə gündəlikdən çıxıb".

Rusiyalı ekspert hesab edir ki, yerdə qalan və razılaşdırılan bütün digər məsələlər hələlik açıqlanmır. "Yalnız bundan sonrakı strategiya ilə bağlı onu demək olar ki, Putinin bu görüşdə deməyə sözü olub. Əks halda, görüş olmazdı və yalnız telefon danışıqları ilə və ya Putinin Əliyev və Sərkisyanla ayrıca görüşləri ilə kifayətlənilərdi. Əgər o, prezidentləri bir yerə yığıbsa, demək, konstruktiv təkliflər olub. Diqqət edin, bu danışıqlardan sonra rəsmi Bakıdan hansısa narahatlıq və məyusluq siqnalları eşitmədik. Deməli, belə bir ehtiyatlı nəticə çıxarmaq mümkündür ki, nizamlama prosesi, hər halda, pərdə arxasında Moskva ilə İrəvan arasında bazarlıq xətti üzrə gedir. Bazarlaşma da onun ətrafında gedir ki, necə eləmək ki, ərazilərin hərbi əməliyyatlarla deyil, Rusiyanın səyləri ilə boşaldılması üçün zəmin yarandığı görünsün" - ekspert sonda əlavə edib.

Yeri gəlmişkən, Ermənistanda ən çox narahatlıq doğuran məqamlardan biri atəşkəsə yeni nəzarət mexanizmi ilə bağlı İrəvanın gözləntisinin fiasko olmasıdır. Çünki bu mexanizmlər işğal rejimini uzatmaqla Ermənistanın özünü daha rahat və cəzasız hiss etməsinə gətirəcək, paralel olaraq Azərbaycanın hərb variantından istifadədə əl-qolunu bağlayacaqdı. Görünür, o halda Rusiyanın da Ermənistana təsir imkanları azalacağından, Kreml yeni mexanizmə soyuq yanaşıb.

***

Peterburq görüşünün mümkün nəticələrini fərqli müstəvidə təhlil edənlər də var. Məsələn, digər nüfuzlu rusiyalı politoloq, Kremlə müxalif Andrey Piontkovski hesab edir ki, Moskva payızda Gürcüstanı hərbi fəaliyyət hədəfinə çevirəcək və Qarabağ ətrafında vəziyyəti kəskinləşdirəcək. Onun sözlərinə görə, oktyabrın əvvəllərində Gürcüstanda keçiriləcək seçkilərdə Putinin agenti İvanişvilinin qondarma koalisiyası uduza və Mixail Saakaşvilinin partiyası səslərin əksəriyyətini toplaya bilər ki, bu da Rusiya üçün tamamilə qəbuledilməz variantdır.

**Politoloqun fikrincə, Putin mümkün olan hər şeyi edəcək ki, bu ssenarinin qarşısını alsın. O, Qarabağ ətrafında vəziyyətin kəskinləşməsini də bununla izah edir.** "Moskvanın həm Bakıda, həm İrəvanda agenturası var. Kreml orada vəziyyəti asanlıqla mürəkkəbləşdirə bilər"-analitik bildirib. Onun əminliyinə görə, Putini Qarabağ münaqişəsinin nizamlanması deyil, Bakıya və İrəvana təsir göstərmək üçün münaqişənin idarə olunması maraqlandırır: "Hazırda Moskva Dağlıq Qarabağa Rusiya sülhməramlı qüvvələrinin yeridilməsi ideyasını yürüdür".

Öz növbəsində tanınmış amerikalı ekspert Ariyel Koen ehtimal edir ki, Rusiya prezident Barak Obamanın hakimiyyətdən gedişi məqamından istifadə edərək yay-payız dövründə Gürcüstan və Qarabağ ətrafında durumu kəskinləşdirə bilər - birinci halda Gürcüstandakı seçkilərlə bağlı *(Cənubi Osetiyanın Rusiyaya birləşdirilməsi üçün referendum da bu ərəfəyə düşəcək),* ikinci halda isə Dağlıq Qarabağa Rusiya sülhməramlı qüvvələri yeritməyə zəmin hazırlamaqdan ötrü.

****

**Beləcə, Neva sahillərindəki Qarabağ danışıqlarına dair kifayət qədər fərqli ekspert rəyləri mövcuddur. Onların hansının mötəbər olduğunu bilmək üçünsə yəqin ki, çox gözləmək lazım gəlməyəcək. Çünki Qarabağ konfliktinin həlli daha bir neçə il uzana bilməz, yeni situasiya bunu istisna, dönüş üçün real irəliləyiş tələb edir. Ən önəmlisi, müharibə ,faktiki, qapıdadır.**

**Şərh və proqnozlara inansaq, üzü payıza bütün "sular durulacaq".**

❑ **Siyasət şöbəsi**

# Mənzil bazarında son durum necədir?

**Makler:** “6-7 aydır ki, ev alqı-satqısı nədir bilmirik”



**Ramil Osmanlı:** “Bütövlükdə bazarda müxtəlif göstəricilərdə azalmalar var”

**Hələ bu ilin əvvəlindən ekspertlər mənzil bazarında bahalaşma olacağı ilə bağlı proqnozlar verirdilər. Bunu isə manatın devalvasiyası, tikinti materiallarının qiymətlərinin durmadan artması ilə əlaqələndirirdilər.**

Bəs hazırda mənzil bazarında hansı dəyişikliklər var?

Mənzil bazarındakı son durumu öyrənmək üçün “Neftçilər” metro stansiyasının yaxınlığında yerləşən, mənzil alqı-satqısı ilə məşğul olan ofislərə baş çəkdik. **Makler Həsənağa Alcanovun** sözlərinə görə, hazırda daşınmaz əmlak bazarında passivlik hökm sürür: “6-7 aydır ki, ev alqı-satqısı nədir bilmirik. Notariusun da ünvanını unutmuşuq artıq. Alqı-satqı, demək olar ki, sıfıra bərabər olub. Deyirdilər ki, ”Sovetski"dəki söküntülərə görə ev almaq istəyənlər çox olacaq. Amma hələ buna rast gəlmirik. Devalvasiyadan sonra qiymətlər qalxdı. Əvvəllər satış dollarla idi. Amma indi manatladır, bu da sərf etmir. Heç manatla da alqı-satqı yoxdur. İndi birotaqlı evin qiyməti (mərkəzdə olmayan) 40-55 min manat dəyərindədir. Halbuki əvvəllər birotaqlı ev ən yaxşı halda 40 min dollardan yuxarı deyildi. İndi isə 40 min manata yalnız çox təmirsiz ev almaq olar. Ev sahibi olmaq istəyənlər isə evi kreditlə, pulunu hissə-hissə ödəməklə almaq istəyirlər. Məsələn, əvvəlcədən 10 min manat verib, qalan pulu isə sonrakı bir neçə ayda vermək istəyirlər".

**Həsənağa Alcanov kirayə evlərin qiymətinin ucuzlaşdığını dedi. Lakin onu da qeyd etdi ki, əhalinin gəlirləri az olduğundan kirayə ödənişlərində problemlər yaşanır:** “Bir otaq əvvəllər 250 manat idisə, indi qiymət 180-200 manat arasında dəyişir. Kondisioneri, paltaryuyanı olan əla təmirli ev 250-270 manat arasındadır. Üçotaqlı evlər isə 250-300 manatdır. Əvvəllər isə 350-400 manat idi”.

**Maklerin sözlərinə görə, torpaq sahələrinə maraq da azalıb:** “Çünki tikintiyə icazə yoxdur”.

Ev alqı-satqısı ilə məşğul olan Elman adlı makler isə ev almaq istəyənlərin sayının nisbətən artdığını bildirdi. Onun sözlərinə görə, ev sahibi olmaq istəyənlər torpaq sahəsi alıb ev tikməkdənsə daha çox hazır ev almağa üstünlük verir: “Ev tikmək baha başa gəldiyindən hazır evlərə üstünlük verilir”.

Maklerlərlə söhbətimizdən məlum oldu ki, kirayə ev bazarında gözlənilən ucuzlaşma müşahidə olunur.

**Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı məsələ ilə əlaqədar “Yeni Müsavat”a danışıb. Ekspert daşınmaz əmlak bazarında hələ qiymət artımından söz açmağın tez olduğunu bildirdi. Onun sözlərinə görə, ümumilikdə müəyyən dövrlərdə qiymətlərin artması konkret situasiyalardan asılı olan bir məsələdir:** “2013-2014-cü illərdə şəhərsalma ilə bağlı hökumət söküntüyə, daha doğrusu, mənzil söküntüsünə külli miqdarda vəsait ayırdı. Bu vəsait yenidən geriyə, daşınmaz əmlak bazarına qayıtdı və kəskin şəkildə tələbi artırdı. Mahiyyət etibarilə bu süni tələb idi. Amma faktiki olaraq mövcud vəziyyətdə bazarda tələb artıbsa, qiymət artımı baş verməli idi, bu, təbii proses idi. İnzibati təsirlər istər ilkin, istər təkrar bazara, istərsə də ayrı-ayrı seqmentlərə bu və ya digər şəkildə özünü göstərir. Məsələn, devalvasiya baş verdi, manat öz dəyərini 20-30 faiz itirdi və bu özünü daşınmaz əmlak bazarında özünü göstərdi. Və yaxud Vergilər Nazirliyi qərar qəbul etdi, qərarın icrasına başlanılan andan öz təsirini əmlak bazarında göstərməyə başladı. Yəni bütün bu proseslərin hamısı üst-üstə yükləndiyi üçün bazarda xaos vəziyyət müşahidə olunmağa başladı”.

**Ekspert ümumilikdə daşınmaz əmlak bazarında olduqca passiv bir dövr yaşandığını vurğuladı:** “Doğrudur, ilin əvvəlində, birinci rübdə olduğu kimi, kəskin qiymət azalmaları müşahidə olunmur, qiymətlər stabilləşib. Amma bütövlükdə bazarda müxtəlif göstəricilərdə azalmalar var. Yəni iki rəqəmli qiymət azalmaları olmasa da təxminən 2-3 faiz azalma baş verəcək. Bu da mövsümlə əlaqədar olan bir məsələdir”.

❑ **Xalidə GƏRAY**

**Bu gün Böyük Britaniyanın Avropa İttifaqından ayrılması ilə bağlı referendum keçirilir. Bu ölkədə keçirilən rəy sorğularının nəticələrinə görə, demək olar ki, Aİ-dən ayrılmaq istəyənlərlə istəməyənlərin sayı bərabərdir. Lakin Londonda Britaniyanın parlament üzvü Co Koksun güllələnərək öldürülməsi, Britaniyanın Avropa İttifaqının tərkibində qalmasını dəstəkləyən bu parlament üzvünün qətli bəzi seçicilərin fikirlərini dəyişməsinə səbəb olub.**

# Böyük Britaniya üçün kritik gün

## Ekspertlər düşünür ki, referendumun nəticəsi olaraq Böyük Britaniya Aİ-də qalacaq, ancaq...

Seçkidən bir gün öncə Avropa Şurasının rəhbəri Donald Tusk Britaniya xalqına səslənərək onları Aİ-dən ayrılma qərarına səs verməməyə çağırıb. D. Tusk bildirib ki, Britaniyanın Aİ-ni tərk etməsi Avropaya və bütün Qərbə zərbə olacaq. “Biz bunun hansı reaksiyalar verəcəyini və zəncirvari reaksiyanın necə gedəcəyini bilmirik. Bu, hazırda bizim üçün əsas riskdir”-deyə Donald Tuisk bildirib.

**Politoloq Elxan Şahinoğlu “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, referendumdan hansı nəticənin çıxacağı haqda proqnoz vermək qeyri-mümkündür:** “Referenduma iki gün qalıb. Əgər bir neçə gün öncə Avropa İttifaqından çıxmaq istəyənlərin sayı nisbətən çox idisə, Londonda baş verən sui-qəsddən sonra ittifaqda qalmaq istəyənlərin sayı nisbətən artıb. Londondakı qətl də onunla bağlı idi ki, ingilis deputat Avropa İttifaqında qalmağın tərəfdarı idi və onu radikallardan biri öldürdü. Bu da istər -istəməz insanlarda həmin deputata və onun fikirlərinə rəğbət oyatdı. İndi Britaniyada həmin terror hadisəsinə görə çox qəribə bir situasiya yarana bilər ki, ingilislərin nisbətən çox hissəsi Böyük Britaniyanın Aİ-də qalmasına tərəfdar ola bilər”.

“Ancaq burada bir məqam var ki, hətta səs çoxluğu ilə Aİ-də qalmaq tərəfdarları üstünlük təşkil etsə, gələcəkdə də bu məsələ yenə də qalxacaq. Çünki bu illərdə nə Böyük Britaniyanın narazı qaldığı miqrant məsələsi həll olunacaq, nə iqtisadiyyatda irəliləyiş olacaq. Yəni bir müddət keçəcək və bu məsələ yenidən qalxacaq. Böyük Britaniya nə zamansa Avropa İttifaqından çıxmağa səs verəcək. Çünki Avropa İttifaqı öz qlobal problemlərini hələ ki həll eləmək iqtidarında deyil. Avropa İttifaqından çıxmaq istəyənlərin ciddi arqumentləri də var ki, belə davam etsə, ölkə iqtisadiyyatı zəifləyəcək. Miqrantların böyük əksəriyyəti isə Britaniyanın Aİ-dən çıxmasının əleyhinədir. Ona görə də düşünürəm ki, bu referendumun nəticəsi olaraq Böyük Britaniya Aİ-də qalacaq. Ancaq bu heç də o demək deyil ki, Böyük Britaniyanın Aİ-də qalıb-qalmaması məsələsinə nöqtə qoyulacaq”.

**E.Şahinoğlunun fikrincə, ingilisləri Avropa İttifaqından ən çox narazı salan məqam miqrant məsələsidir:** “Böyük Britaniya hər zaman böyük dövlət olub və özü müstəqil qərarlar verib. Hətta 1974-cü ildə Böyük Britaniya Aİ-yə üzv olanda belə referendum keçirməmişdi. Ondan sonra belə Böyük Britaniya tam olaraq Avropa İttifaqının tərkib hissəsi olmadı. Avropa İttifaqına daxil olan bütün dövlətlər avronu qəbul etsə də, Böyük Britaniya etməyib və bildirib ki, mən özüm müstəqil siyasət yürüdəcəyəm, mənim milli valyutam funt sterlinq olmalıdır. İndi də Böyük Britaniya özünü Avropa İttifaqından nisbətən kənarda görür. Bu diskussiyalar illərdir aparıldığına görə Devid Kameron seçki öncəsi vəd vermişdi ki, bu məsələyə yenidən baxacaq. O öz verdiyi vədə uyğun olaraq, referendum təyin etdi. O, Brüsselə getdi, danışıqlar apardı, şərtlərini irəli sürdü və sonra bu nəticəyə gəldi ki, guya Brüssel onun şərtlərini qəbul etmir. Şərtlər də ondan ibarət idi ki, Böyük Britaniyanın daha çox payı olacaq, daha çox maliyyə yardımları onlara veriləcək, onların daha çox qərar vermək imkanları olacaq”.



**Politoloqun sözlərinə görə, referendumun nəticəsinin nə olmasından asılı olmayaraq, Aİ Böyük Britaniyanın şərtlərini yerinə yetirməyəcək:** “Bu vədləri veriblər, lakin bu o demək deyil ki, Britaniya Aİ-də qalsa, onun vədlərinin hamısı yerinə yetiriləcək. Çünki digər dövlətlər də deyə bilər ki, biz də böyük dövlətlərik, bizim də özümüzə görə statusumuz olmalıdır. Aparılan rəy sorğuları onu göstərir ki, Böyük Britaniya Avropa İttifaqından çıxsa, Fransa və Yunanıstanda da respondentlərin böyük əksəriyyəti bu məsələnin gündəmə gəlməsini istəyəcək. Yəni referendumda Devid Kameron istədiyi nəticəni əldə etsə belə, bu o demək deyil ki, Aİ onların bütün şərtlərini yerinə yetirəcək.

Britaniyanın iki əsas şərti var. Birincisi, miqrantların qəbulu ilə bağlı şərtlərin sərtləşdirməsini tələb edilir. İkincisi, isə ümumi bir veto hüququ məsələsi var. Aİ-də qərarlar konsensus üsulu ilə qəbul edilir və ittifaq ölkələri əhalinin sayından və ərazisindən asılı olmayaraq hamısının eyni dərəcədə söz hüququ var. Bəzən kiçik bir ölkə heç özünə aid olmayan qərarların qəbuluna veto qoya bilir. Britaniyanın təkliflərindən biri də bu qaydanın dəyişdirilməsi və ümumi səs çoxluğu ilə qəbul olunmuş qərarların yerinə yetirilməsi məsələsidir. Məncə, bu məsələdə Britaniya tərəfi haqlıdır".

**İqtisadçı ekspert Natiq Cəfərli “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, Britaniyanın ittifaqdan ayrılması biznes üçün ziyanlı bir proses olacaq, funt sterlinq zəifləyəcək və bank sisteminə ziyan dəyəcək:** “Bu qərarın çıxmasının iki səbəbi var idi. Britaniya əhalisinin böyük əksəriyyəti Avropa İttifaqının ümumi immiqrasiya siyasətini bəyənmirdi. İngilislər daha çox immiqrantların qəbul edilməsini və onların Avropa İttifaqı ölkələri arasında bölüşdürülmə kvotasını bəyənmirdi. Çünki Avropa İttifaqının ən böyük ölkələrindən biri olduğu üçün kvotaya uyğun olaraq, Britaniya daha çox immiqrant qəbul etməyə borclu idi. Bu birinci səbəb idi. İkinci səbəb isə o idi ki, Britaniyanın Avropa İttifaqından çıxmağa tərəfdar olan siyasətçiləri belə bir arqument səsləndirirdilər ki, birliyin bir çox layihələrində, o cümlədən Şengen vizasında Britaniya iştirak etmir, o cümlədən ümumi pul vahidi - avro məkanına daxil deyil, ancaq ən çox üzvlük haqqı ödəyən ölkələrdən biri Britaniyadır. Avropa İttifaqından çıxmağın tərəfdarı olan siyasətçilər bu iki arqumenti əsas götürürdülər. Ancaq o da faktdır ki, bu qərar Avropa İttifaqı Birliyi ilə iqtisadi əlaqələrin zəifləməsinə gətirib çıxara bilər. Bunu əsas götürərək böyük şirkətlər lobbiçilik edirlər ki, belə bir qərar çıxmasın. Çünki Britaniya Aİ-dən çıxsa, sonradan həmin şirkətlər üçün yeni müqavilələrin bağlanması gündəmə gələcək ki, bu da biznes üçün ziyanlı bir prosesdir”.

**İqtisadçının sözlərinə görə, əgər referendumdan ayrılma qərarı çıxsa, ən böyük zərbə Britaniyanın milli valyutası olan funt-sterlinqə dəyəcək:** “Funt-sterlinq tarixinin ən aşağı məzənnəsini görə bilər. Funt-sterlinqin dəyərdən düşməsi isə ümumi bank sektoruna təsir göstərə bilər. Bildiyimiz kimi, London dünyanın maliyyə mərkəzlərindən biridir. Ona görə də belə bir qərarın çıxması ümumi maliyyə sisteminə mənfi təsir göstərə bilər. Dünya birjalarında həm funtun dəyərdən düşməsinə səbəb ola bilər, həm də dünyada bank sistemində çox ciddi şəkildə problemlər yaşana bilər. Buna görə də sorğuların nəticəsi onu göstərir ki, Aİ-dən çıxmaq tərəfdarları ilə qalmaq tərəfdarlarının sayı təqribən eynidir. Yeganə olaraq, təxminən 15 faizə yaxın hələ də qərar verməyən seçicilər var və referendumun taleyini də məhz qərarsızlar həll edəcəklər. Mən ümid edirəm ki, Britaniya seçiciləri Aİ-də qalmağa qərar verəcəklər, çünki bunun iqtisadi nəticələrindən çox siyasi nəticələri də ola bilər və domino effekti yarada bilər. Digər ölkələrin də Aİ-dən çıxması üçün prosedur qaydalarının formalaşmasına gətirib çıxara bilər ki, bu da birliyin gələcəyini sual altına qoyacaq”.

❑ **Nərgiz LİFTİYEVA**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 137 (6458) 23 iyun 2016



# "Sankt-Peterburqdakı danışıqların məxfi detalları Qərb üçün çox önəmlidir"

## Rusiyadakı Qarabağ müzakirələrindən sonra hərbi çağırışlar yenidən artdı, QAT "müharibə" deyir; **hərbi ekspert Üzeyir Cəfərov:** "Əgər illərdir sülh yolu nəticə vermirsə, onda yeganə ümid silaha qalır"

**Rusiyanın vasitəçiliyi ilə baş tutan Azərbaycan və Ermənistan prezidentlərinin Sankt-Peterburq görüşü ilə bağlı yeni detallar ortaya çıxıb. İlkin olaraq görüşün nəticəsiz başa çatdığı barədə fikirlər daha çox səslənsə də, mediaya açıqlanan yeni məlumatlar bunun əksini deyir.**

Belə ki, rəsmi Bakı ilk dəfə prezidentlərin görüşündə problemin həllində tərəflərin razılığa gəldiyi məqamları açıqlayıb. Prezident Administrasiyası rəhbərinin müavini Novruz Məmmədov deyib ki, görüşdə əvvəlcə Azərbaycanın 5, ondan sonra 2 rayonunun azad olunması və dəhlizin müəyyən edilməsi, sonda Dağlıq Qarabağın statusunun müəyyən edilməsi barədə razılığa gəlinib. Ancaq Ermənistanın bir sıra hallarda razılaşdırılmış planları pozması hər kəsə məlumdur. Bu arada Minsk Qrupunun sabiq amerikalı həmsədri Metyu Brayzanın da fikirləri maraq doğurur. Diplomat deyib ki, "prezidentlərin görüşü münaqişənin siyasi həll prosesinə təkan verib". Keçmiş həmsədr onu da vurğulayıb ki, Dağlıq Qarabağ münaqişəsi üzrə Sankt-Peterburq sammiti siyasi prosesin gələcəkdə irəliləməsi üçün əlverişli psixoloji ab-hava yaradıb.

Qarabağla bağlı prosesə seyrçi qalan ABŞ-ın diplomatının Rusiyanın mövqeyini təqdir etməsi maraqlı məqamlardandır. Rusiyanın məsələni birdəfəlik həll etmək niyyətində olmadığı, bu gərginlik ocağını dondurub saxlamaqla bölgədəki maraqlarını həyata keçirməyə üstünlük verdiyi məlumdur və bunu təsdiqləyən xeyli faktlar var. Ermənistanın davranışları, Azərbaycanın genişmiqyaslı hərbi təlimləri hətta Sankt-Peterburq görüşündə də davam etdirməsi bundan xəbər verir ki, Bakı torpaqların dinc yolla azad ediləcəyi barədə düşmənin hansısa öhdəliyinə belə inanmır və ehtiyat varianta üstünlük verir. Ancaq bu gün Azərbaycan Rusiya faktorunu ciddi şəkildə nəzərə alır və ona görə də maksimum səbirli davranış sərgiləməklə işğala son qoyulmasına çalışır. Azərbaycan prezidentinin Sankt-Peterburq görüşü ərəfəsində "Azərbaycan daha 20 il danışıqların davam etdirilməsi ilə razılaşmayacaq" deməsi, həmçinin Peterburqda rusiyalı həmkarı ilə görüşdə ilk olaraq Azərbaycan torpaqlarının işğaldan azad edilməli olduğunu bildirməsi Bakının prinsipial mövqeyinin ifadəsidir.

**Deputat, Milli Məclisin Təhlükəsizlik, müdafiə və korrupsiya məsələləri komitəsinin üzvü Zahid Oruc "Yeni Müsavat"a mövcud situasiyanı şərh edərkən öncə Rusiyanın fəallaşmasının səbəblərindən bəhs etdi:** "Onsuz da Lavrov vasitəsilə Rusiya bütün danışıqlara nəzarət edir və hər gün Kerrinin telefon zənglərinə cavab verən rus xarici siyasət idarəsinin rəhbəri Amerikanın Qarabağa artan marağının nədən qaynaqlandığını yaxşı bilir. Cavabı son ayların hadisələrində axtarmaq lazımdır. Hər halda, "sabiq çekist olmur" deyənlərin yenə də haqlı çıxdığını görə bilərik. Yəni Vyana danışıqlarına razılıq verən Moskva 4 günlük müharibədən sonra Qərbin hərəkətə keçdiyinin və təşəbbüsü ələ almağa çalışdığının fərqindəydi. Erməni versiyasından çıxış edib son vəziyyəti daha yaxşı izah etmək olar. Belə ki, Moskva və Bakı öz aralarında məlum hərbi-siyasi yaxınlaşmanı dərinləşdirməklə "mərhələli hərbi həll" yolunu seçiblər və razılaşdırılmış müharibə Qərbi regiondan kənarda qoymağa hesablanıb. Ona görə də Vaşinqtondan baxıb görəndə ki, Putin müharibəni istədiyi ssenari üzrə inkişaf etdirə bilər və belə olanda Avropaya açılan bütün keçmiş-indiki transmilli layihələri zərbə altına düşər, onda Obamanın məsləhətçiləri çalışdılar ki, erməniləri və azərbaycanlıları rus layihəsindən çıxarsınlar".

**Z.Orucun sözlərinə görə, bütün hallarda Putin 5 apreldə müharibənin yeni dalğasını dayandırıb siyasi təşəbbüsü əbədi rəqiblərinə verə bilməzdi:** "Doğrudur, Sankt-Peterburq Qarabağa Vyanadan bir köynək daha yaxındır. Onsuz da Avstriya görüşləri ilə Sankt-Peterburq danışıqlarını bir-birinin davamı saymaq olmaz. Çünki 4 günlük müharibədən sonra Qafqaz uğrunda gedən mürəkkəb diplomatik-siyasi davanın gücləndiyini görə bilərik. Hər halda, Nevada son sülh sazişi imzalanası deyildi, yalnız Rusiyanın bölgədə əsas rol oynaya biləcəyinə hər iki tərəfi inandırmaq və imkan yarandıqda Minsk Qrupu dövlətlərindən imtina etmək tələb edilirdi. Hazırda Moskva və Bakı arasında tarixdə heç zaman olmayacaq qədər yaxşı münasibətlər hökm sürdüyündən və əksinə, ermənilər son yüz ildə ruslarla ən pis duruma gəlib çatdığından İlham Əliyev danışıqların məhz belə bir müstəvidə Azərbaycana xeyir verəcəyinə ümid bəsləyirdi. Əslində hərbi status-kvo dəyişib və onu siyasi cəhətdən tamamlamaq lazımdır. Sankt-Peterburqda erməni prezident rus liderindən Azərbaycana satılmış silahların Qarabağda istifadəsinin yolverilməzliyi bəyanatını, aprel döyüşlərinin məsuliyyətini və Lələtəpədən geri durmaq əmrini eşitmək istəyərdi. Hər halda, müttəfiqliyin tarixi və hazırkı birgə ittifaqlarda olmağın məntiqi bunu tələb edirdi. Ancaq Sərksiyanın bütün sadəlövh gözləntisinin ziddinə olaraq, Putin Azərbaycanı qınamadı, əksinə, İlham Əliyev elə salamlama nitqində dərhal işğaldan və onun ortadan qaldırılmasından danışdı. Ona görə də Sankt-Peterburq görüşünün məxfi xarakterinə rəğmən, onu uğurlu bir prosesin mühüm həlqəsi saymaq istərdim".

**Deputat hesab edir ki, Rusiya Qarabağ münaqişəsindən indi külli miqdarda ziyan çəkdiyini yaxşı başa düşür:** "Bütün Qərb kompaniyalarını regiona məhz münaqişəli vəziyyət gətirdi. Üstəlik, Qarabağ hərbi cəhətdən Qərbin Rusiya sərhədlərinə yaxınlaşmasının ən yaxşı yoludur. O cümlədən Şimali Qafqazı destabilə etmək üçün mühüm platsdarm məhz Azərbaycan ərazisində belə hərbi gərginlik mənbəyini saxlamaqdır. Biz hələ şimal-cənub strateji nəqliyyat arteriyaları üzərində Cəbrayılda, Füzulidə bir neçə yüz erməninin ucbatından Rusiyanın itirdiyi milyardları da ziyanların siyahısına əlavə etsək, sanksiyaların vurduğu zərbədən daha böyük itkilərin alındığına əmin olarıq. Ona görə Putin planını əngəlləmək və onun Qafqazdakı sülhpərvər missiyasına ziyan vurmaq, regionu himayə edə biləcək yeganə gücün NATO olacağını qələmə vermək üçün Sankt-Peterburqdakı danışıqların məxfi detalları Qərb üçün çox önəmlidir. Onlar tərəfləri öz orbitlərinə çəkmək üçün hər cür şirnikləndirici təkliflər gətirməyə hazırdırlar. Hər halda, 90-cı illərdə bu xalqlardan bir çoxunu ruslarla vuruşdurub bunun böyük faydasını götürüblər. Lakin prezidentlik müddəti sona çatmaqda olan Obamanın iki dövlət başçısı ilə birgə görüşə 8 ildə zaman tapmaması fonunda Putin yeganə xilaskara çevrilir. Çox yaxın günlərdə yenidən Avropa paytaxtlarına yığışıb Qarabağı müzakirə edəcək diplomatların hamısı bilir ki, Moskva ilə razılaşmadan hərəkət edə, hər hansı sülh sazişini icra etmək üçün qoşun birləşmələri yarada bilməzlər. Bizim düşüncələrimizdə son 20 ilin gətirdiyi dəyişiklik bundan ibarətdir. Məhz ona görə də Sankt-Peterburqda mərhələli hərbi həll planı üzərində gizli planların razılaşdırıldığına daha çox inanıram. Bəli, söhbət mərhələli sülhdən getmir. Azərbaycan Rusiyanın fəallığı və bölgənin təhlükəsizliyi üçün dəyişikliklər etmək planlarına qarşı deyil. Ona görə prezidentin keçmiş sovet şəhərindən inamlı qayıtdığını görməmək mümkün deyil".

### Zahid Oruc: "Obamanın 8 ildə iki prezidentlə birgə görüşə zaman tapmaması fonunda Putin yeganə xilaskara çevrilir"

**Ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov isə Rusiyadakı nəticəsizlikdən bəhs etdi və Rusiya prezidentinin təşkilatçılığı ilə keçirilən görüşün uğurlu olması barədə fikirləri bölüşmür:** "Məgər işğalçı işğal faktoruna son qoymaqla bağlı hansısa niyyət və ya arzusunu dilə gətiribmi ki, görüşün uğurlu olduğu deyilir? 20 ildən artıqdır ki, bu minvalla Rusiya və Ermənistan həm milyonlarla insanın normal yaşayış qaydalarına heç bir halda hörmət etmir, beynəlxalq hüquq və normalara əməl etmir, hələ üstəlik, Azərbaycanın suveren hüquqlarına saygısızlıq göstərir. Daha dərin təhlil etsək, bu, əslində beynəlxalq hüququn böhranı və çox zəif olması anlamına gəlir. Belə olmasaydı, indi çoxdan BMT Nizamnaməsi və konkret olaraq, Qarabağla bağlı 4 məlum qətnamə yerinə yetirilərdi. Görünən isə odur ki, başda Rusiya olmaqla, ATƏT, onun bu münaqişənin həlli üçün yaradılmış Minsk Qrupu da çox aciz bir durumdadılar. Boş və mənasız danışıqlar, görüşlər, sərf edilən milyonlarla vəsait, ortalıqda isə heç bir konkretlik ifadə etməyən söz yığınağı".

**Ü.Cəfərov savaş risklərini tam real sayır:** "Əlbəttə ki, belə gedişlə yenə silahlar işə düşəcək, dağıntılar, ölüm-itim qaçılmaz olacaq. Bunu anlamaq üçün çox da böyük savada, biliyə malik olmaq tələb olunmur. Hesab edirəm ki, Sankt-Peterburq görüşü də əslində vəziyyətin müsbətə doğru dəyişməsinə təkan vermək əvəzinə, ortalığa daha çətin vəziyyətin, yeni silahlı qarşıdurmanın olmasını şərtləndirən problemləri dərinləşdirdi. Ola bilsin ki, kimlərsə mənim bu fikirlərimi radikal, yerində olmayan mövqe kimi qəbul etsinlər. Yenə təkrar edirəm ki, əgər Azərbaycan öz torpaqlarının bundan sonra bir xeyli müddət də işğal altında qalması ilə barışmayacağını bəyan edirsə, danışıqlar masası arxasında Ermənistan-Rusiya "nağıllarının" sonu görünmürsə, bunun başqa adı yoxdur. Dünyada konfliktlərin həlli yolunda iki məfhum mövcuddur. Bunu siyasətçilər də, adi insanlar da gözəl bilirlər: ya sülh, ya da müharibə. Əgər illərdir sülh yolu nəticə vermirsə və ya bu istiqamətdə imitasiya edilirsə, onda yeganə ümid silaha qalır. Azərbaycan əsgəri aprelin əvvəllərində çox da güc sərf etmədən bütün dünyaya bu barədə xəbərdarlığını etdi. Təbii ki, müharibədə qan, ölüm, fəlakət olur. Bir xalqın yaşaması, dövlətinin mövcud olması üçün hər bir şeyə hazır olmaq lazımdır. Heç nədən, heç kimdən qorxmaq lazım deyil. Azərbaycan dövlətinin həm əvvəllər, həm də gələcəkdə fəxr ediləsi tarixi olub, var və inşallah, olacaq. Sadəcə, düzgün siyasət, ağıllı addımlar və qətiyyətli mövqe sərgiləmək tələb olunur. Mənə elə gəlir ki, sadaladıqlarımın hamısı bizdə var".

**Ermənistanın Rusiya ilə növbəti dəfə oyun oynadığını düşünənlər də az deyil. Xüsusilə də Azərbaycanın işğal altındakı ərazilərdə süni məskunlaşma siyasətinin davam etdirilməsi bir çoxlarını savaşın alternativinin olmadığı qənaətinə gəlməyə sövq edir. Qarabağ Azadlıq Təşkilatı (QAT) öz bəyanatında bildirib ki, Rusiya Dağlıq Qarabağ münaqişəsindən maksimum yararlanmağa çalışır, bütün gücü ilə işğalçı Ermənistanı müdafiə edir:** "Bu mənada digər həmsədr ölkələrin - ABŞ və Fransanın mövqeyi Rusiyanın mövqeyindən heç nə ilə fərqlənmir. Tamamilə aydındır ki, xristian dövlətləri, onların hökmran olduqları beynəlxalq təşkilatlar hər cəhdlə xristian Ermənistanın regionda mövqeyinin güclənməsinə, işğalçı Ermənistanın Dağlıq Qarabağ münaqişəsindən qalibiyyətlə çıxmasına, regionda xristian amilinin möhkəmlənməsinə çalışırlar. Bu, Rusiyanın son 300 il, Qərbin isə son 100 il ərzində apardığı siyasətin davamıdır. İşğalçı Ermənistan bu "münbit" şəraitdə özünü çox rahat hiss edir, "qurbanlıq keçi" olduğunun, bütün region xalqlarının nifrətini qazandığının fərqinə varmır, axmaqcasına Azərbaycana və digər region ölkələrinə meydan oxumaqda davam edir". QAT bəyan edib ki, Azərbaycan hakimiyyəti öz siyasi qərarını, döyüş əmrini verməlidir: "Biz bunu Azərbaycan hakimiyyətindən israrla tələb edirik!"

Görünən budur ki, əvvəlki görüşlərdən fərqli olaraq, budəfəki danışıqları Azərbaycan xalqının savaş ruhu, müharibə tələbi müşayiət edir və bunu həm danışıqların təşəbbüskarları, həm də işğalçı yaxşı bilir. Aprel döyüşləri və ondan sonrakı yeni mərhələ masa üzərindəki "mərhələli həll" planının icraya yönəldilməsi üçün yenidən uzun illər gözləməyin nə qədər riskli olduğunu isbatlamış olub.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Cavid TURAN

YENİ MÜSAVAT
N 137 (6458) 23 iyun 2016

# Qızıl qiymətinə yetişdirilən barama - laboratoriyadan reportaj...

## Ölkədə baramaçılığın bərpasına başlanılıb, ilk addım atılıb, ancaq...

**Otaq bütünlüklə taxçalarla örtülüb, qalaqlanmış geniş vitrinlərdə isə yarpaq dolu ağac budaqları var. Qəribə bir xışıltı da eşidilir, bütün otaqda xırtıltı var. Diqqət etdikdə səsin budaqlara dırmaşan ağ qurdlardan gəldiyini görürəm, ipəkqurdları tut yarpaqlarını yedikcə otaq qəribə küylə dolur... Qurdlara yarpaq verən qadın səsdən təəccübləndiyimi görüb deyir: "Bunun uzağı qırx gün zəhməti var, sonra iş bitir"...**



### Qırx günlük zəhmətin bəhrəsi - 8 manatlıq barama...

Qısası, ipəkqurdu yetişdirilən laboratoriyadayam. Uzun illər sonra ölkədə baramaçılıq və ipəkçilik yenidən canlanıb. Bu sahənin bərpası istiqamətində işlər gedir. İlk bərpa ilində baş verənləri, aparılan işləri, qarşıya çıxan çətinlikləri gündəmə gətirmək üçün ipəkçiliyin mərkəzi sayılan Şəki şəhərinə üz tutmuşam. Görüb-eşitdiklərim maraqlıdır...

Bu il bərpasına başlanan baramaçılıq mövsümünü başa çatmış hesab etmək olar. Artıq ailələr götürdükləri ipək qurdlarını barama halında Şəki İpək Kombinatına təhvil veriblər. "Şəki İpək" ASC 70 tona yaxın barama təhvil alıb. Doğrudur, başı qalmaqalda olan bu qurumda jurnalist olaraq xoş qarşılanmadıq, hətta bizi sexlərə də şəkil çəkmək üçün buraxmadılar. Ancaq bildirdilər ki, bu il bərpasına başlanan ipəkçiliyin gələcəyi nikbin görünür.

**Milli Elmlər Akademiyasının Şəki Regional Elmi Mərkəzi isə baramaçılığın sıradan çıxdığı illər ərzində də bu sahədə fəaliyyətini axsatmayıb. İpək Kombinatından fərqli olaraq Şəki Regional Elmi Mərkəzində ipəkçiliyin, baramaçılığın inkişafından, bu sahədə gördükləri işlərdən həvəslə danışırlar. Elmi mərkəzin direktoru, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Yusif Şükürlü bildirir ki, sovetlər dağılandan sonra bu sahə sıradan çıxsa da, onlar araşdırmalarını davam etdiriblər:** "Ötən il isə biz baramaçılığın inkişafı ilə bağlı təklifimizi rəhbər, aidiyyəti orqanlara çatdırdıq, icra hakimiyyətinə, onlar da yuxarılara danışdılar. İstəyirdik ki, rayonda aqrokompleks yaradaq. Bu, olmasa da, baramaçılığın bərpasına başlandı. Bu, müsbət haldır, inkişafın olacağına əminik. Bu, həm dövlət, həm camaat, həm də dolanışıq üçün vacibdir. Neçə illərdir bizim mərkəzdə araşdırmalar gedir, biz ipəkqurdu toxumlarını özümüz yetişdiririk. Laboratoriyada yeni cinslər yaratmışıq. Bu il 400 qrama yaxın toxum da verdik, ancaq bu, yetmədi. Ona görə Çindən və İrandan toxum aldılar və camaata payladılar. Bu il yaxşı da məhsul oldu. Bir həftə əvvəlki məlumata görə, təhvil verilən barama 56 tondur, hələ yığılır. Məqsəd budur ki, Şəki İpək Kombinatı işləsin".

### "Baramaçılığın inkişafı bizə çox lazımdır"

**Y.Şükürlünün sözlərinə görə, məhsuldarlıq normal olduqda, bir qram qurddan orta hesabla dörd kiloqram barama götürülür:** "Əvvəllər ipək qurdunu bəsləmək üçün yüz hektarlarla tut sahələri vardı, ağaclar əkilmişdi. Sonradan bu ağaclar kəsildi. Bu gün verilən qurdlar o dövrdəki kimi çox deyil, ona görə bəsləmək mümkün oldu. İnsanlar həm də ehtiyat edirdilər ki, birdən qurdu saxlamağa tut ağacı tapılmaz, ona görə götürməyənlər, bəcərməyənlər oldu. Əhaliyə vaxtilə ümumilikdə 200 kiloqram qurd paylanmışdı, bu il isə 60 kiloqrama yaxın paylandı. Tut ağaclarının artırılması da planlaşdırılır. Özümüz də ting yetişdirə bilərik. Bu, baha almaqdan yaxşıdır. Kənardan ting almaq məsələsi də var. İş o qədər çətin deyil, iş görmək lazımdır. Bu il görülən işdə üstün cəhət odur ki, tərəzinin başında məhsulu çəkib götürüb pulunu verirlər. Baramanın kilosu 8 manata verilir. Hələ söz də var ki, dövlət özü də kömək edəcək ipəkqurdu yetişdirənlərə, kilosu iki manatdan əlavə pul verilə bilər. Dünyanın hər yerində bu, var. Baramaçılığın inkişafı bizə çox lazımdır. Təkcə dövlətin iqtisadi vəziyyəti üçün yox, insanların dolanışığı üçün də lazımdır. Qısa müddətdə, cəmisi 40 gündə əmələ gələn məhsuldur. Əsas şərt odur ki, tut bağımız olsun. Dünyada olan ümumi vəziyyət, xam ipəyin qiymətinin aşağı düşməsi illər əvvəl bizim bağların məhv olmasına səbəb oldu. Sovet dağılan ərəfədə baramanın qiyməti aşağı düşdü, istehsalçılar istehsal etməkdə maraqlı olmadı, bizim dövlətin də başı müharibələrə qarışdı. 1995-96-cı illərdə bizim bağlar məhv oldu, kəsib yerində fındıq bağları saldılar, ipəkçiliyə böyük zərbə dəydi".





**Onun sözlərinə görə, ötən illərdə Şəki İpək Kombinatına xam ipək xaricdən, daha çox Çindən gətirilib:** "Həm də zavod bütün gücü ilə işləmirdi. Vaxtilə orada 7 min fəhlə işləyib. Xam ipəyin kilosunu Çindən son illərdə 50-60 dollara alırdılar. Ölkədə baramaçılığın inkişafı müsbətdir, daha ucuz başa gələr. İstəyirik ki, Azərbaycanda baramaçılıq inkişaf etsin. Dövlətin də artıq xətti var. Bizim mərkəzdə müxtəlif ipəkqurdu cinslərimiz var, yeni cinslər alınıb. Hər il cinslər yenilənir. Bu müddət ərzində elmi mərkəzdə cinslərin təzələnməsi ilə məşğul olmuşuq. Düşünürük ki, yerli şəraitə uyğun tut ipəkqurdu istehsal olunmalıdır. Azərbaycanda sənaye-polimer əsasında ipəyi elmə bizim laboratoriya ciddi şəkildə çıxarıb. Bu sahədə işlər gedir. 2002-ci ildə ipəkçiliklə əlaqədar yaradılan Qara dəniz, Xəzər dənizi və Orta Asiya dövlətlərinin Assosiasiyasının Azərbaycan üzrə koordinatoruyam. Qurumun 8-ci konfransı gələn il Şəkidə keçiriləcək. Bu, müsbət haldır, gələn il ölkədə baramaçılığın daha da inkişafına ümid edirik. Azərbaycan sovetin dönəmində barama istehsalı üzrə birlikdə ikinci yeri tuturdu".

### "İpək hazırlayırıq, amma sertifikatı yoxdur"...

**Y.Şükürlü həmçinin qeyd edir ki, Azərbaycanda təmiz ekoloji ipək istehsal olunmağa başlansa da, dünya bazarına çıxması üçün sertifikat alması lazımdır:** "İpəyə beynəlxalq sertifikat almaq da lazımdır. Bu cür təşkilatlar var, Azərbaycanda yoxdur. Xaricdən mütəxəssis dəvət edib, bunları da etmək lazımdır".

***

**Elmi mərkəzin laboratoriyasında da oluruq. Kiçik laboratoriyada işləyən ona yaxın işçi iş başındadır, burada ipəkqurdları xüsusi şəkildə bəslənilir və üzərlərində təcrübələr aparılır. Otaqlarda qurdlar, kəpənəklərlə dolu kiçik torbalar var. Tut ipəkqurdunun seleksiyası şöbəsinin müdiri Qüdrət Bəkirov deyir ki, məqsədləri daha məhsuldar cinslər yaratmaqdır:** "Biz Kənd Təsərrüfatı Nazirliyinin komissiyasına iki cinsi və iki hibridi təqdim etmişik, onlar bizə 4 patent və 4 müəlliflik şəhadətnaməsi veriblər. O cinslərin müəllifiyəm. Laboratoriyamızda ciddi iş gedir, təhqiqatlar aparılır. Məsələn, çəhrayı barama almışıq. Qurdun yaşama qabiliyyətinə, yemləmə müddətinə görə seleksiya işləri aparırıq. Qurdun inkişaf mərhələsini, yemləmə müddətini azaltmaq üçün çalışırıq, bu, işçi qüvvəsinə qənaət deməkdir. Hibridləşmə nəticəsində qısa müddətdə yetişən cinslər yaratmağa çalışırıq, bu, mümkündür. Həmçinin regionun iqlim şəraitinə uyğun cinslər yaratmağa çalışırıq. Məqsəd odur ki, yaratdığımız cinslər həm sənaye, həm kənd təsərrüfatı üçün əlverişli olsun. Baramanın çəkisi böyük olsun, ipəkliliyi çox olsun".

### "Şəki-İpək" ASC-də vəziyyət - köhnə avadanlıqlar, keyfiyyətsiz iş şəraiti...

Tonlarla baramanın qəbul edildiyi Şəki İpək Kombinatında isə əvvəlcədən danışmağımıza baxmayaraq, bizi sexlərə buraxmırlar. **"Şəki-İpək" ASC-nin müşaviri Teymur Musayev** uzun-uzadı rəhbərliklə danışandan sonra bir neçə suala cavab verməyə razı olur. İş gedən sexlərə getməyə isə icazə verilmir. İş vaxtının bitməyinə yarım saat qalsa da, T.Musayev şəkil çəkməyə icazə olmadığını dəfələrlə vurğulayır: "İstəsəniz, bu özümüz sizə şəkillər verərik".



**Onun sözlərinə görə, dövlət başçısının göstərişi və Kənd Təsərrüfatı Nazirliyinin sifarişi ilə bu il İrandan 19, 5 kiloqram, Çindən isə 30 kiloqram tut ipəkqurdu toxumu gətirilib və dirildilərək respublikanın 24 rayonuna paylanıb:** "1750 qutu paylanılıb. Bir qutuda 19 qram qurd olur. Bu günə qədər 68 tona yaxın barama yığmışıq, 70 tona çatacağını düşünürük, tədarük davam edir. Gətirilən yaş barama bizdə ilkin emal olunur, quru halına salınır. Sonra baramaaçan istehsalatı var, bu ayın 1-dən işə düşüb, orada baramadan ipək sap istehsal olunur. İstənilən ölçüdə, formada, sıxlıqda ipək parçalar istehsal edə bilirik. Bizdə kələğayı istehsalı da var. İyulun 1-dən toxucu istehsalatı seximiz işə düşəcək. 350 nəfər əlavə daimi iş yeri açılacaq. Amma mövsümü işlə, barama ilə əlaqədar bu gün respublika üzrə aşağısı, on min nəfərdən çox adam bu işlə məşğul olub. 25-40 gündə bu qədər adam işləyib. Baramanın qiyməti 8 manatdır, yaş barama üçün 6 manatdan pulunu veririk. Bu il baramanı növə ayırmamışıq. Camaat bu işə həvəslə girişib, 24 rayonun hamısında olmuşam, məhsuldarlıq da yaxşıdır. Uzun müddət bu sahə yaddan çıxmışdı. İndi bərpa edilib. Bu, müsbətdir".

**Öyrənirik ki, yığılan barama kombinatın cəmi üç aylıq məhsul ehtiyatıdır:** "Üç aylıq ehtiyatdır. Baxarıq sonra necə olacaq. İstəyirik ki, müəssisə daim işləsin. Gələcəkdə bu sahə yəqin inkişaf etdiriləcək, bu il artıq bünövrəsi qoyuldu". T.Musayev kombinatda standartlara cavab verən istehsal və toxuculuq avadanlıqlarının olduğunu desə də, onları göstərməkdən imtina etdi.

**Bizsə rayon sakinlərindən maraqlanırıq, öyrənirik ki, kombinatda vəziyyət deyildiyi kimi yaxşı deyil. Avadanlıqlar olduqca köhnədir, iş və istehsal şəraiti isə standartlara uyğun deyil. Baramaaçan sexdəki avadanlıqlar keyfiyyətsiz olmaqla bərabər, sayı da çox deyil. Durumdan şikayətlənən fəhlə qohumlarının sözlərinə görə, vəziyyəti düzəltmək üçün ASC rəhbərliyi heç bir cəhd etməyib:** "Əvvəl pambıq lif istehsal olunurdu, orada da vəziyyət yaxşı deyil, sexlər bərbad durumdadır. Bu cür şəraitdə insanlar orada çalışırlar".

Qeyd edək ki, "Şəki-İpək" ASC-nin adı ətrafında bir müddət əvvəl qalmaqal yaranmışdı. Mətbuatın yazdığına görə, hazırda rəhbəri həbsdə olan Azərbaycan Beynəlxalq Bankının "Kredit əməliyyatı" adçəkilən müəssisəyə qədər uzanıb. Müəssisə 2005-ci ildə özəlləşdirilməyə çıxarılandan sonra "Pərvanə" MMC bu ASC-nin əsas səhmdarına çevrilib. Şirkətin isə Xəqani Bəşirova məxsus olduğu bildirilir. Onun adı Beynəlxalq Bankın məşhur "kredit" olaylarında çəkilir. ASC-nin Beynəlxalq Banka 70 milyon kredit borcunun olduğu bildirilirdi. Qeyd edilirdi ki, xammal almağa pulu olmayan ASC-nin sexləri bir-bir bağlanıb. Hətta kələğayı sexi də fəaliyyətini dayandırmalı olmuşdu. Sonda isə Şəkidə ipəkçilik rəsmən ləğv edilmişdi.

**Söhbətləşdiyimiz rayon sakinləri isə bildirirlər ki, bu il bələdiyyə və icra nümayəndələri ipəkqurdlarını əksər hallarda zorla camaata paylayıblar.** "Hər yerdə də qurda verməyə yarpaq axtarırdılar, tut ağacları kifayət qədər deyil. Az sayda insan barama yetişdirməyə razılaşdı, inzibati metodlardan istifadə edib baramaçılığı inkişaf etdirmək istəyirlər. Görək mümkün olacaqmı?", - deyə söhbətləşdiyimiz taksi sürücüsü sual edir...

❑ **Röya RƏFİYEVA**
❑ **Fotolar müəllifindir**

**Azərbaycanlıların da yay istirahəti üçün seçimləri sırasında yer alan Türkiyənin istirahət bölgələrində vəziyyət acınacaqlıdır. "Yeni Müsavat" ordakı real mənzərəni Türkiyənin "Hürriyet" qəzetinin araşdırmasına əsasən oxucularına çatdırır. Bu il ölkənin turizm sektoru uzun illərdən sonra bəlkə də ən ağır mövsümlərdən birini keçirir. Xüsusən də Türkiyənin turizm şəhərlərində çətin vəziyyət dərindən hiss edilir. Bu şəhərlərdə təkcə hotellər yox, əslində satıcılar da, yerli xalq da sayı yaribayarı azalan turistlərin ortaya çıxardığı problemlərdən nəsibini alır. Uzun müddətdir hansı hotel sahibinə soruşulsa, hansı sektor təmsilçisi ilə danışılsa, problemin böyük olduğunu, azalan turist sayının sözügedən sektoru çökdürdüyünü deyir.**

# Bir gecəsi 235 AZN olan Bilgəh, yoxsa 7 günü 190 AZN-ə Kabuleti?

## Azərbaycanlı turist Türkiyəyə getmirsə, yerli hotellərdə dincələrmi?



**Bəzi hotellər açılmayıb, yataqlar lobbidə düzülüb, şezlonqlar isə boşdur**

"Hürriyet" Antalyadan Muğlaya qədər bir neçə bölgəni araşdıraraq ortaya maraqlı turizm dosyesi qoyub. Belə ki, Antalyada Alanya, Konaklı, Türkler, Avsallar, Okurcalar, Side, Belek, Lara, Muratpaşa, Beldibi, Kemer və Tekirovaya, Muğlada isə Fethiye, Ölüdeniz, Göcek, Dalaman, Marmaris və Bodruma baş çəkiblər. Bütün bu bölgələrdə yaşanan ortaq problem ötən illə müqayisədə turist sayının aşağı düşməsidir. Problemlər bununla da bitmir. Bir çox hotellər ötən illə müqayisədə daha az işçi işlədir. Bölgədə işsizlik artıb. Bəzi hotellər açılmayıb, hovuzlar boş, yataqlar isə hotelin lobbisində yerə düzülüb. Açıq olan hotellər isə lazımi müştərini təmin edə bilməməkdən narazıdır. Məsələn, 200 otaqlı bir hoteldə cəmi 25 otağın dolu olmasından şikayətlənir hotel rəhbərləri. Və bu müştəri qıtlığı baqqalından qarğıdalı satıcısına, taksi sürücüsündən kafe rəhbərinə qədər hər kəsə problem yaradır.

Keçmişdə ən qabaq sıradakı şezlonqları zəbt etmək üçün yarış olduğunu deyən hotel işçiləri indi gün boyu şezlonqların boş qaldığından şikayətləniblər. Antalyaya gələn turist sayı ötən illə müqayisədə 42 faiz azalıb. Xüsusən Alanya və Kemerdə böyük sıxıntı yaşanır. Təkcə Alanyada açılmayan turizm müəssisələrinin sayı 30-u keçib. Bir çox hotel isə açıq olmasına baxmayaraq boşdur.

**Aeroportlar ilk siqnalı verir**

Elə İstanbul Atatürk aeroportunda da bu problem özünü göstərir. Burada da Antalyaya gedən təyyarələrdə sərnişin azlığı diqqət çəkir. Antalya aeroportunda bir il əvvəl özünü göstərən qələbəlikdən indi əsər-əlamət yoxdur. Taksiyə daha tez minmək, avtobusa çatmaq cəhdləri yoxdur. Alanyanın mərkəzindəki restoranlar isə boş, taksi sürücüləri və mağaza sahibləri müştəri gözləyirlər. Əksər hotellər işçilərinin sayını azaldıb. Alanyadakı hotel sahiblərindən biri turist sayının azlığına görə 140 işçisini işdən çıxarıb. Almanların və rusların çox sevdiyi Side və Manavqatda da durum çox parlaq deyil. Bələkdəki satıcılar isə çoxdan bu krizə məğlub olublar. Bir eynək mağazası sahibi 7 ildir ki, bu bölgədə alver etdiyini, amma heç vaxt belə pis vəziyyətlə qarşılaşmadığını deyib: **"Bu il bölgədəki dükanlarımızdan birini bağlayacağıq. Çünki kirayəsini ödəyə bilmirik. İllik kirayə 60 min avronu keçir. Keçən il gündə 1500 dollara yaxın mənfəətimiz olduğu halda, indi bu rəqəm 100 dolları keçmir".**

**Nə pullu çimərlikdə turist var, nə də pulsuzda...**

Antalyanın Lara bölgəsində isə pullu-pulsuz çimərliklərin heç birində turistə rast gəlmək mümkün deyil. 500-dən çox nömrəsi olan hotellərin sahillərindəki insanları rahatlıqla saymaq mümkündür. Bu bölgədə də ticarət obyektlərinin icarə haqqı ildə 30-100 min avro arasında dəyişir. Mağaza sahibləri gündə ən azı 2500 avro qazanmalıdır ki, kirayəni və işçilərin məvaciblərini ödəyə bilsinlər.

Taksi dayanacağında çalışan sürücülər də vəziyyətdən şikayətçidir. Dediklərinə görə, keçən il dayanacaqda 18 taksi dayanmadan çalışırdı. İndi isə ancaq 9 taksi dayanacağa gəlir. O taksilərin sürücüləri də 1-2 müştəri ilə günü yola verirlər. 24 saat çalışan bir taksinin gündəlik gəliri 80 faizə yaxın düşüb. Kəmərdə 5 ulduzlu iki hoteli olan bir sahibkar isə hotellərindən birini açmamağa qərar verib.

**Bizdə isə 4 günə 700 AZN istəyirlər...**

Bu il azərbaycanlılar üçün də Türkiyənin istirahət bölgələri əlçatan deyil. Məlumdur ki, turizm şirkətləri turları dollarla alır və müştəriyə də dollarla satır. Dolların gündəlik kursuna əsasən isə qiymətlər heç də ürəkaçan deyil. Digər tərəfdən, Türkiyədə turizmin ölü vəziyyətdə olmasını oxuyan istənilən şəxs düşünür ki, müştəri axınına məruz qalmayan turizm obyektində xidmət də, yeməklər də, qulluq da əvvəlki kimi olmayacaq. Üstəgəl, Türkiyədə son dönəm terror faktlarının artması insanı bu ölkədən bir qədər qorxudur. Əcəba, getdiyimiz yerdə terror ehtimalı ola bilərmi?

Bu kimi problemlər isə insanı istər-istəməz bölgələrimizdəki istirahət guşələrinə yönəldir. Amma qiymətlərlə tanış olana qədər. Azərbaycanın Şəki, Qax, Quba, Qusar, Lerik, Şamaxı, Qəbələ kimi bölgələrində 4 nəfərlik ailənin istirahəti minimum 2 min AZN-ə başa gəlir. Sözügedən bölgələrdə yerləşən sıradan hotellərdən birində 1 həftə ərzində qalmaq yalnız səhər yeməyi daxil edilməklə, bir nəfər üçün 500-700 AZN məbləğindədir.

Adi bir misal. "Qafqaz Qəbələ Resort" hotelində 15 iyun - 31 avqust tarixlərində 5 gecə qalıb 4 gecə üçün 690 AZN ödəmək təklif olunur. Kampaniya 2 nəfərlik standart (double və ya twin) otaqlar üçün nəzərdə tutulub.

Qiymətə daxildir:

- 2 nəfərlik standart otaq;
- Səhər və axşam yeməyi;
- SPA mərkəzi;
- Hovuz;

**Qeyd.** Göstərilən qiymətlər Ramazan bayramı günlərinə (6-10 iyul tarixlərinə) şamil edilmir.

Yəni burda söhbət heç 1 həftədən də getmir. 4-cə gün üçün, hətta nahar da daxil edilmədən, 700 AZN-ə yaxın məbləğ bir nəfərə aiddir.

"Samaxi Palace" hotelində isə 1 həftə istirahət, 7 gecə, 6 gün üçün 499 AZN tələb olunur. Bura ancaq səhər yeməyi və SPA daxildir.

**Bilgəh, yoxsa Kabuleti?**

Hesab edək ki, çox uzağa getmək istəmirsiz. Bilgəhdə, yaxınlıqda bir hoteldə, dənizdə üzmək və təmiz hava almaqla istirahət planınız var. Çox da tələsməyin. Çünki burda yerləşən "Jumeriah hotel"də bir nəfərin bir günlük qalmasının qiyməti 235 AZN-dən başlanır, ta 410 AZN-ə qədər. Sözügedən hoteldə kral suitinin qiyməti isə... 7435 AZN-dir. Bəli, bir gecəsi... Odur ki, başqa fakta gərək varmı?

Buna görə də bir çox yerli turistlər Gürcüstan variantına üstünlük verir. Sosial şəbəkədə elanlarını yerləşdirən turizm şirkətlərindən biri Kabuletidə 7 günlük istirahət üçün cəmi 190 manata elan verib, iyul ayı üçün müştəri rezerv edir. 190 manata hoteldə 6 gecə 7 gün qalmaq, gündə üç dəfə yemək, hotelin bütün xidmətlərindən istifadə etmək daxildir. Bu isə azərbaycanlı turist üçün əlavə və daha sərfəli istirahət təklifidir.

❑ **Sevinc TELMANQIZI**



# Salyan xəstəxanasında ölən körpələrlə bağlı yeni təfərrüatlar

**Uşaqların atası:** "Körpələr 4 saat oksigensiz, işıqsız qalıblar"

**Səhiyyə Nazirliyi:** "Doğularkən çəkiləri çox az olub, bədən orqanlarının hamısı formalaşmayıb, tənəffüs alma imkanları olmayıb"

**Salyanda xəstəxanada elektrik enerjisinin kəsilməsi ucbatından yenicə doğulan üçəmlərdən ikisinin ölməsi xəbəri ictimaiyyəti silkələdi. Yaxınları körpələrin xəstəxananın elektrik enerjisi kəsilməsi nəticəsində saatlarla şüşə altında (küveys) oksigensiz qalaraq boğulub öldüyünü desələr də, Səhiyyə Nazirliyi bu iddianın əsassız olduğunu bildirib. Nazirlikdən bildirilib ki, körpələr vaxtından əvvəl doğulduqlarından onların vəziyyəti yaxşı olmayıb və bütün yardımlara baxmayaraq, körpələrdən biri gecə 01:00 da, digəri isə 01:10-da vəfat edib, rayonda isə işıqlar 01:30-da sönüb.**

Salyan Mərkəzi Rayon Xəstəxanasının baş həkimi Hüseynağa Həsənov da APA-ya bildirib ki, uşaqların ölümünün elektrik enerjisinin kəsilməsi ilə əlaqəsi yoxdur. Onun sözlərinə görə, uşaqlar hamiləliyin 31-ci həftəsində, yəni vaxtından əvvəl dünyaya gəlib. Ölən körpələrin çəkisi 1,1 və 1,305 kiloqram olub. Körpələrin doğuşdan 30 dəqiqə sonra öldüyü bildirilib. Sağ qalan körpənin çəkisi isə 1,250 kiloqramdır.

Körpələrindən ikisini itirən ata Toğrul Fərəcov isə ANS-ə açıqlama verərək bildirib ki, uşaqlar saat 4-ə qədər sağ olublar: "Yalan sözdür! Saat 04:00 qədər mən xəstəxanada olmuşam. Sonra evə getmişəm. 5-ə işləmiş mənə zəng vurdular ki, uşaqlar ölüb. Körpələr 4 saat oksigensiz, işıqsız qalıblar".

**Qeyd edək ki, ölən körpələrin ölüm səbəblərini araşdırmaq üçün onların meyiti Bakıya, nazirliyin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinə gətirilib. Bu barədə nazirliyin mətbuat xidmətinin əməkdaşı Səfayə Əhmədova "Yeni Müsavat"a açıqlamasında bildirib. Onun sözlərinə görə, ekspertizanın rəyindən sonra körpələrin ölümünün səbəbləri aydınlaşacaq:** "Buna görə də hələ ki dəqiq səbəb demək olmur. Lakin bildiyiniz kimi, körpələr vaxtından əvvəl, 31 həftəliyində dünyaya gəliblər. Doğularkən çəkiləri çox az olub, bədən orqanlarının hamısı formalaşmayıb, tənəffüs alma imkanları olmayıb. Yəni ağır vəziyyətdə doğulublar. Körpələrin atasının mətbuata verdiyi açıqlamadan da xəbərdaram. Mənə hadisə ilə bağlı məlumat verilində baş həkimin izahatını ilkin versiya kimi mətbuatda açıqlamışam. Dəqiq məlumat isə ekspertizanın rəyindən sonra məlum olacaq".

Səfayə Əhmədova qeyd etdi ki, körpələrin meyitlərinin ilkin müayinəsi başa çatıb. Yekun ekspertizanın rəyi isə 2-3 həftədən sonra məlum olacaq.

**Onu da əlavə edək ki, sağ qalan körpə də müayinə üçün Bakıya, Elmi Tədqiqat Pediatriya İnstitutuna gətirilib. S.Əhmədova həmin körpənin vəziyyətinin stabil-ağır olduğunu dedi:** "Yaşayıb-yaşamayacağnı deyə bilmərik. Lakin həkimlər əllərindən gələni edirlər ki, uşaq yaşasın".

Xatırladaq ki, iki gün öncə 21 yaşlı Abdullayeva Mirzabitə İlham qızı Salyan Rayon Mərkəzi Xəstəxanasının Doğum şöbəsində üçəm dünyaya gətirib. Bir müddət sonra uşaqlardan ikisi ölüb. Valideynləri doğuşdan sonra küveysə yerləşdirilən körpələrin ölümünü elektrik enerjisinin kəsilməsi, yaranan oksigen çatışmazlığı ilə əlaqələndiriblər. Faktla bağlı Salyan Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 314.2-ci (səhlənkarlıq ehtiyatsızlıqdan zərər çəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

❑ **Xalidə GƏRAY**

# Bir biletlə həyatının dəyişəcəyinə inananlar...

**"Birdən-birə möcüzə baş verə və milyonlara sahib olam" düşüncəsi çoxlarımızın ağlından keçib. Hətta istəyimizə çatmaq üçün müxtəlif lotereya biletləri almışıq, şans oyunlarında da iştirak etmişik. Amma necə deyərlər, burada da gərək bəxtin üzünə gülsün. Elə insanlar var ki, "bəlkə bu dəfə tutdu" düşüncəsi ilə cibindəki son pulla lotereya bileti alır. Bir qəpik qazanmasalar belə illərlə lotereya alırlar. Tez-tez mətbuatdan xarici ölkələrdə bir biletlə milyonçu olan, həyatları dəyişən insanlar barədə eşidib o günün bir gün Azərbaycanda da reallaşacağına inananlar mövcuddur.**

## Lotereya satıcısı: "Adam olub ki, 7 min pul udub, mənə gətirib 1 manat da verməyib"

**5 dollara aldığı lotereya ilə 1 milyon dollar qazanan azərbaycanlı gənc...**

Xarici ölkələrdə mütəmadi olaraq lotereyada böyük məbləğlər udulur. Məsələn, bir neçə il öncə ABŞ-ın Kaliforniya ştatında yaşayan və 20 il davamlı olaraq lotereya bileti alan pensiyaçı qadın Raymond Bakston külli miqdarda "cek-pot" əldə etmişdi. 20 il ardıcıl olaraq lotereya bileti alan pensiyaçı cek-potda 425,3 milyon dollar udub. 2016-cı ilin yanvar ayında isə bir həmyerlimiz də Azərbaycan lotereyalarında "cek-pot"u tutdura bilməsə də, buna ABŞ-da nail olub. Belə ki, ABŞ-a yeni köçən Pərviz Quluzadə adlı azərbaycanlı gənc 5 dollara aldığı lotereyada 1 milyon dollar udub. Avto FM radiosuna bu barədə danışan gənc Pərviz Quluzadə bildirib ki, o, müntəzəm olaraq lotereya bileti alır: "Hər zaman olduğu kimi bu dəfə də 5 dollar ödəyərək bilet aldım və evə çatan kimi, lotereyanın üstündəki şifrəni pozdum. Orada mənim "cek-pot" qazandığım yazılmışdı. Əvvəlcə inana bilmədim. Çünki bileti aldığım oğlan mənim tanışım idi, düşündüm ki, o, mənimlə zarafat edir. Sonra biz internetdə qazanan biletləri yoxladıq və məlumatı dəqiqləşdirdik. Udduğum məbləğin vergiləri ödənildikdən sonra təxminən 500 min dollar civarında pul mənə qalacaq". Pulu necə istifadə edəcəyi ilə bağlı suala isə ev almaq fikrinin olduğunu və bu ölkədə Azərbaycan mətbəxini tərənnüm edən restoran açmaq istədiyini bildirib.

Xarici ölkələrdəkindən fərqli olaraq, "Azərlotereya"da milyonlar deyil, on minlər, yüz minlər oynanır və bir çox hallarda bu bir neçə qalib arasında bölünür. Ona görə də bu məbləğ onların həyatını dəyişməyə yetərli olmur. Azərbaycanın lotereya tarixində iki dəfə böyük uduş olub. Bunlardan birincisi 2013-cü il sentyabrın 16-da udulub. Həmin gün "6/40" lotereyasının 439 min 135 manata qədər yüksəlmiş "cek pot" sahibini tapıb. İkinci ən böyük uduş isə 2014-cü ilin iyununda oynanılıb. "6/40" lotereyasının 409 min 295 manatlıq "cek pot"u udulub.

**Lotereya hesabına tikilən Çin səddi...**

Lotereyanın tarixinə nəzər salsaq, bu şans oyununun eradan əvvəl 100-cü illərə gedib çıxdığını görərik.

Lotereyanın ilk formaları qədim Roma və Çində tətbiq edilib. Eradan əvvəl 100-cü ildə Çində Xan sülaləsi tərəfindən lotereya təşkil edilib. Lotereyadan əldə edilən vəsaitlər Çin səddinin tikilməsinə sərf edilib. Tarixi salnamələrə görə, qədim Romada da Yuli Sezar tərəfindən müxtəlif lotereyalar təşkil edilib. Lotereyalardan əldə edilən vəsaitlər yolların, körpülərin və binaların təmirinə sərf olunub. Avropada isə lotereya oyunlarının keçirilməsi 15-ci əsrə təsadüf edir. Rəsmi lotereya tirajı 24 fevral 1466-cı il tarixində Belçikanın Brügge şəhərində baş tutub. Flamand rəssamı Yan Van Eykin ölümünün 25-ci il dönümü ilə bağlı onun həyat yoldaşı lotereya tirajı keçirib. Lotereya bileti almış şəxslər tirajda iştirak edib. Bu aksiya imkansız insanlara kömək məqsədilə keçirilsə də lotereyanın qəlibləri müxtəlif pul uduşları qazanıb. İtaliyanın Florensiya şəhərində isə 1530-cu ildə "De Lotto De Firenze" adlı lotereya keçirilib. Bu lotereyada pul uduşları rəsmi olaraq valyuta ilə ödənilib. Bundan sonra bu lotereya İtaliyanın bütün iri şəhərlərində keçirilməyə başlayıb. 18-ci yüz illikdə Fransada "Lo Giuoco del Lotto D'Italia" adlı lotereya oyunu yayılaraq böyük rəqabət qazanıb. Fransızlar bu oyunu "Le Lotto" adlandırırdılar. Keçmiş SSSR-də isə 1921-ci ildən etibarən müxtəlif lotereyaların keçirilməsinə start verilib. Bunlardan ən çox uğur qazanmış "Sportloto" və "Sprint" kimi lotereyaları olub. Əhali arasında bu lotereya çox böyük uğur qazanmışdı.

**Azərbaycanın lotereya tarixi**

Lotereya oyunları Azərbaycanda ötən əsrin 90-cı illərindən geniş yayılıb. O vaxtlar "Şeş Qoşa", "Bəxt oyunu", "Səadət təkəri" və sairə kimi lotereya oyunları keçirən özəl şirkətlər vardı. Lakin onların dövranı uzun çəkmədi. Hazırda Azərbaycanda "Klassik Loto", "Super Loto", "Binqo", "5/36", "6/40" və sairə adda müxtəlif lotereyalar satılır. Bunların qiyməti 1-2 manata qədərdir. Bu biletlərdə ən az pul uduşu 20 manatdır. Azərbaycanda satılan lotereya biletlərində pulla yanaşı, ev, maşın udmaq şansı da olur. Hazırda paytaxtda insanların sıx olduğu yerlərdə, xüsusən də metroların giriş-çıxışlarında lotereya biletləri satılır. İnsanların bəziləri bu biletləri alır, bəziləri isə inamsız halda yanından etinasız ötüb keçir. **10 ilə yaxındır ki, lotereya satdığını deyən Teymur Əliyev müxtəlif sevinclərə və kədərlərə şahid olduğunu bildirdi:** "Əvvəllər lotereyaya inananlar daha çox idi. İndi onların sayı azalıb. Amma yenə də ümid edib alanlar var. Bu qədər lotereya bileti satıram. Amma özüm bir dəfə olsun bu biletlərdən alıb oynamamışam. Nəsə içimdə bir inamsızlıq var. Məndən bilet alıb udanlar olub. Bilet alan hər kəs deyir ki, əlin sayalı olsa, pul udsam sənə də gətirib verəcəyəm. Sözdür də, deyirlər. Adam olub ki, 7 min pul udub. O bileti də mən seçmişəm ona. Amma gətirib mənə heç 1 manat da verməyib. Onları qınamıram, pul şirin şeydir".

**Bu arada bilet almağa yaşlı bir kişi gəlir və 3 bilet alır. "Yəqin ki, bu dəfə tutar" deyən alıcıdan bu günə qədər lotereyadan pul udub-udmadığı ilə maraqlandıq. Adının Kamal Məmmədov olduğunu deyən alıcı ildərdir ki, lotereya bileti aldığını deyir:** "Bəlkə 6-7 ildir ki, lotereya bileti alıram. Uduşlarım olub, amma böyük məbləğlər deyil. 2-3 manat, bir dəfə də 20 manat udmuşam. Demək olar ki, çox vaxt biletə verdiyim pulu çıxarmışam. Ümid edirəm ki, bir gün çoxlu pul udacağam. O gün gələnə qədər də lotereya bileti alacam. Əsas odur ki, insan ümidini heç vaxt itirməsin".

❑ **Günel MANAFLI**

**Fotolar müəllifindir**






## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


## Elan

**Xudaverdiyev Əlisahib Əsəd oğluna məxsus Kazım Kazımzadə 34 ünvanına dair qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

## Elan

**Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhmədi alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.**

**Əlaqə telefonu: (070) 335-90-15.**


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

# "Avro-2016"nın ulduzu:









# "Lənətlənmiş Beyl" kimdir?

## Dünyanın ən bahalı transferi Fransada 3 oyunda 3 qol vurub; Qaret Frenk həm də nümunəvi ailə başçısıdır




**"Avro-2016"nın qrup mərhələsi bitdi. B qrupunda İngiltərə millisindən də çox xal toplayan (6) Uelsin "pley-off" mərhələsinə vəsiqə qazanması bu çempionatın ən böyük sürprizlərindən biridir. 50 illik fasilədən sonra bu cür mötəbər yarışa qatılan Uels növbəti mərhələyə vəsiqə qazanmaqla kifayətlənmədi, milli komandanın yarımmüdafiəçisi Qaret Beyl çempionatın bombardirləri sırasında da ilk yerdədir. Dünyanın ən bahalı futbolçusu qrupda keçirdiyi 3 oyunda 3 qol vurub. Beyl Slovakiya və İngiltərəyə cərimə zərbəsindən qol vurmuşdusa, Rusiyanın qapısına oyun vəziyyətindən yol tapıb. Yada salaq ki, o, "Avro-2016"nın seçmə mərhələsində də 10 oyunda 7 qol vurmuşdu.**

Çempionatda yaranmış iki günlük fasilədən istifadə edərək "Avro-2016"nın ilk mərhələsinin ən parlaq oyunçusu olan Qaret Beyl haqda bəzi məlumatları oxuculara təqdim edirik.

***

Adı Qaret Frenk. Soyadı Beyl. Boyu 183. Çəkisi 74. Evli. İki qız atası. "Real" klubunun və Uels milli komandasının yarımmüdafiəçisi.

Qaret Frenk 1989-cu ilin 16 iyulunda Uelsin paytaxtı Kardiffdə anadan olub. "Üç yaşımdan futbolu sevməyə başladım. Həmişə atama deyirdim ki, məni parka top oynamağa götürsün. Futbol həmişə mənim həyatımda olub. Mənə elə gəlir ki, mən elə anadangəlmə solaxayam" deyən, Frenk böyük futbolda ilk addımını belə xatırlayır. O, futbol ulduzlarına həsəd aparır və həmişə də arzu edirdi ki, onlar kimi ünlü olsun. O, ilk miqyaslı çempionata baxdığı tarixi də xatırlayır. 1998-ci il Fransada keçirilən dünya çempionatında ən çox braziliyalıların oyununa vurulubmuş.

Hələ 9 yaşı olarkən Uelsin "Sautqempton" klubu ona göz qoyub və o, klubun törəmə akademiyasında məşqlərə başlayıb. Məşqlərdə özünü ən yaxşı tərəfdən göstərməyi bacarıb. 16 yaşında o, məktəbin 18 yaşlılardan ibarət yığma komandasından oynayıb. O, 2005-2006-cı ildə "Sautqempton" komandasının əsas heyətinə keçir və bu klubun tarixinə ən gənc oyunçu kim düşür. O, klubun heyətində 38 matçda meydana çıxıb və cəmi 5 qol vura bilir. Klubda da sol oynayan Frenk cərimə zərbələri vurmaqda ixtisaslaşır. İngiltərənin "Tottenhem" klubuna keçdikdən sonra ona meydandan hücuma meylli mövqedə oynamaq etibar edilib. Gənc futbolçu ilk 4 oyunda 6 top vurmaqla diqqəti özünə çəkə bilir. Amma dizindən aldığı zədə səbəbindən əsas heyətdə yerini möhkəmlədə bilmir. Heyətə yeni qatılmaq istəyərkən Qaret Frenk yenidən zədə alır. Bu səbəbdən də o, London klubunun ehtiyat heyətinə göndərilir.

Hər xırda bir detalda böyük mənalar axtaran ingilis idman yazarları zədə səbəbindən "Tottenhem"də uğursuz sezon keçirən futbolçuya "lənətlənmiş Beyl" adı verirlər. İngilis jurnalistlər haqsız da deyildilər. Start heyətdə çıxdığı 24 oyunda doğrudan da "Tottenhem" biq qələbə belə qazanmamışdı.

Zədələri sağaldıqca o, əsas heyətdə yerini möhkəmlədir. "Tottenhem"in baş məşqçi Qarri Rednapp Beylin müdafiədə oynamasından razı qalmır və onu yarımmüdafiə mövqeyinə keçirir. 2010-cu ilin 14 aprelində London derbisi- "Arsenal"la oyunda "Tottenhem"in qələbə topunu Qaret Frenk vurur. Növbəti turda "Çelsi" ilə oyunda da Beyl qələbə topunun müəllifi olur. 2010-cu ildə "Totenhem"lə müqaviləni daha 4 il uzadan Beylin komandası Çempionlar Liqasında (ÇL) oynamaq haqqı qazanır. 2010-cu ilin 21 avqustunda "Stok Siti" ilə oyunda Beyl ilk dublunu edir. ÇL oyunda isə ilk qolunu "Tvente" ilə oyunda vurur.

Beyllə artıq bir neçə ad-sanlı klub-"İnter", "Çelsi", "Milan", Real" və "Milan" kimi komandalar maraqlanırlar. Həmin sezon o, "Tottenhem" in heyətində "het-trik" də edir. "İnter"ə vurduğu üç qolla o, ÇL üç qol vurmuş ilk uelsli olur.

2011-ci il mövsümündə vurduğu qollar sayəsində o, İngiltərədə ilin "ən yaxşı futbolçusu" adını alır. Bundan sonra yenə Beyl ard-arda zədə alır, klubu ÇL tərk edir, Premyer Liqada da 5-ci pillə ilə kifayətlənməli olurlar.

Yeni sezonda Qaret komandanın əsl liderinə çevrilir. O, ənənəvi 3 nömrəsini 11 nömrə ilə əvəzləyir, "Tottenhem"in heyətində ən məhsuldar oyunçu olur. 2013-cü ildə Beyl İngiltərə çempionatında 5 oyunda ardıcıl olaraq 7 top vurur. Bu qollar həm də komandasının qələbə qolları olur. 2013-ü il mövsümündə də Beyl yenidən Primyer -liqanın "ən yaxşı futbolçu" və "ən yaxşı gənc futbolçu" mükafatlarını qazanır.

***

"Real" klubu Beyli öz heyətinə cəlb etmək üçün bir neçə ay komanda ilə danışıqlar aparır. 2013-cü il sentyabr ayının 1-də "Real" rəhbərliyi futbol tarixində ən bahalı transferi reallaşdırdıqlarını bildirir. Məlum olur ki, Madrid klubu Beyl üçün 100 milyon avro ödəməyə razılıq verib. "Real"klubunda ilk oyunda o, "Vilyarreal"ın qapısına qol vurur. Bundan sonra "Sevilya" ilə oyunda da özü iki top vurur, iki məhsuldar ötürmə edir. "Valyadolit"lə oyunda isə Beyl ilk het-trikini edir.

Qaret Beyl 17 yaşından milli komandanın aşağı yaş qrupunda oynamağa başlayıb. Qaret Frenk gənclərin baş məşqçisi Con Toşakın rəhbərliyi ilə hazırlaşmağa başlayır. Milli komandanın heyətində ilk dəfə Trinada və Tobaqo komandasına qarşı oyunda çıxır. Qaret milli komandanın heyətində çıxış edən ən gənc uelsli kimi də tarixə düşür. Qaret Uels millisinin seçmə mərhələdə keçirdiyi 10 oyunda iştirak edib və rəqib qapılarından 7 top keçirib.

***

Fransada keçirilən Avropa çempionatı Beyl üçün uğurlu başladı. İlk oyununda onlar Slovakiya millisinə qalib gəliblər. İngiltərə oyunda da Beyl yenə cərimə zərbəsindən fərqləndi. Rusiya ilə oyunda da o komanda yoldaşları arasında ən fəalı idi və rəqib qapısına 1 qol vurdu.

Qaret Frenk topla 36,9 km/c sürət yığmağa qadirdir. Müqayisə üçün deyək ki, bu göstərici Kriştiano Ronaldoda 33,6, Leonel Messi də 32,5, Runidə isə 31,32-dir.

Qaret təkcə yaxşı oyunçu deyil, o həm də nümunəvi ailə başçısıdır. Onun xoşbəxt seçiminin adı Emma Ris Jonsdur. Onun hər qoldan sonra əlləri ilə ürək göstərməsi həyat yoldaşına sevgisinin işarəsidir. Bu işarəyə görə onun Jasten Biberlə məhkəmə çəkişməsi də olub. Qaret məhkəmədə bu işarənin sahibi olduğunu sübut edə bilib. Bu sevgi hekayəsi hələ Qaret və Emmi yeniyetmə olarkən başlayıb. O zamandan Qaret Frenk seçdiyi xanımı böyük bir məhəbbətlə sevir. Cütlüyün ilk ovladı-Alba Violeta 2012-ci ilin payızında anadan olub. 2015-ci ilin marıtında onların daha bir qız cocuğu da dünyaya gəlib.

Qaret Beylin ürəyini ovsunlamış Emmanın atası Martin Ris-Consonun adı bir neçə milyonluq maliyyə maxinasiyalarında hallanır. Məlumatlarda bildirilirdi ki, Beytlin qayınatası və daha 11 nəfər saxta şirkət quraraq bir neçə milyon dollar mənimsəyiblər.

❑ **Nazim SABİROĞLU**

YENİ MÜSAVAT

Son səhifə

*N 137 (6458) 23 iyun 2016*



## Ata beyin əməliyyatı keçirən oğluna heyrətamiz dəstək verdi

**Beyin əməliyyatı keçirən oğlunun "özümü canavar kimi hiss edirəm" sözlərindən çox təsirlənən ata ona qəribə şəkildə dəstək verib. Ata oğlunun əməliyyat izi şəklində başına tatuirovka vurdurub. "Daily Mail"də yayımlanan xəbərə görə, ötən il Qabriel Marshall adlı 8 yaşındakı uşağın beynində bədxassəli şişə rast gəlinib. Əməliyyatla şiş bütöv halda götürülməsə də Qabrielin müalicəsi 9 ay öncə yekunlaşdırılıb və uşağın durumunda hər hansı dəyişiklik olmayıb. Qabrielin atası Coş isə düşünürdü ki, oğlunun başındakı əməliyyat izi onun özünə inamına pis təsir edir. Xüsusən də oğlunun özünü canavar kimi hiss etdiyini deməsi 28 yaşlı atasını sarsıtmışdı. Oğlunun özünü normal hiss etməsini təmin etmək istəyən Coş başına məhz bu şəkildə tatuirovka vurdurub və "əgər insanlar gözlərini dirəyib baxacaqlarsa, ikimizə birdən baxsınlar" deyib. Bir təşkilatın "Ən yaxşı keçəl ata" yarışmasına qatılan Coşun fədakarlığı böyük rezonans doğurub. Coş təkcə bu müsabiqədə qalib olmayıb, eyni zamanda oğlu ilə yarışmada çəkdirdiyi şəkil internetdə yayılıb.**

# 4 ildir başında 40 kiloluq daşla gəzir

**Çinin Qirin bölgəsi sakini son 4 il ərzində müntəzəm olaraq başında 40 kilo daş gəzdirir. O, bunu adətən gündəlik gəzintilər zamanı edir. Məqsədi isə arıqlamaqdır. 54 yaşlı Tsun Yan hər dəfə başındakı daşla 3 kilometrə yaxın məsafə qət edir. İlk vaxtlar o, başına 15 kilo çəkisi olan daşlar qoyurmuş. İndi isə bu çəkini iki dəfədən artıq artırıb. Bu cür "arıqlama üsulu" sayəsində kişi bir dəfə 30 kilo çəki itirib. Amma ümumilikdə nə qədər arıqlaması dəqiqləşməyib.**



Tsun ilk dəfə idmanla çəkisi 115 kiloya çatanda məşğul olmağa başlayıb. Onun boyu 163 santimetrdir: "Əvvəlcə mən özümü idmanda sınamaq istədim. Çünki əmin idim ki, arıqlamaq üçün dərman qəbul etməkdənsə idman etmək faydalıdır".

Çin sakini bununla da Ginnesin Rekordlar Kitabına düşməyi planlaşdırır. O hesab edir ki, heç kim onun kimi qeyri-adi arıqlama üsulu kəşf etməyib.

# Evlərindən ilan çıxdı, 2 milyon dollar tələb etdilər



**ABŞ-ın Merilend ştatındakı Annapolis şəhərində yaşayan ailə satın aldığı evin əvvəlki sahibini, habelə rieltor şirkətini məhkəməyə verib. Onlar maddi və mənəvi təzminat qismində 2 milyon dollar tələb edirlər. 4 yaşlı oğlu və 9 aylıq qızı olan Cudi Bruks deyir: "Evi alanda sevinmişdik. Çünki gözəl evdir. Təmirə başladıq. Lakin az sonra evdə ilanla qarşılaşdım. Çox qorxsam da, ərimin köməyi ilə ilanı öldürdüm. Daha sonra qızım 4 aylıq olanda onun çarpayısında qıvrılıb yatmış ilan gördüm. Bir qədər keçdi, evdə ilanlar qaynaşmağa başladı. Evi tərk etdik, çünki o zəhərli ilanlar hamımızı öldürə bilərdilər".**

Cudinin əri Ceffin dediyinə görə, 2014-cü ilin dekabr ayında bu evi 410 min dollara satın alıblar. Daha sonra ailə evdə genişmiqyaslı təmirə başlayıb və binanı normal hala salıblar.

İndi isə evdə çoxlu ilan olduğu üçün orada yaşamaq mümkün deyil.

Bu səbəbdən də Trakston roud, 631 ünvanda yerləşən evin sahibləri Ceff və Cudi Brukslar məhkəməyə üz tutaraq Barbara van Horn, Coan Broseker, habelə "Champion Realty, Inc." və "The Joan Broseker Revocable Trust" şirkətlərindən 2 milyon dollar tələb edirlər.

Rieltor şirkətləri "məhkəmə prosesini şərh etmirik" deyərək olayla bağlı açıqlama verməyiblər.




**QOÇ** - Passiv gündür. Hansısa qeyri-adi hadisəni gözləməyə dəyməz. Yaxşı olar ki, üzərinizə düşən adi işlərin həlli ilə məşğul olasınız. Məxfi görüşləri və səfərləri təxirə salın.

**BUĞA** - Təxminən saat 14-ə qədər ümumi əhvalınız süst olduğundan bütün ciddi işlərinizi təxirə salın. Sonrakı müddətdə isə maliyyə uğurlarınız gözlənilir. Uzaq yola çıxmayın.

**ƏKİZLƏR** - Qarşılıqlı münasibətlərdə, eləcə də işgüzar sövdələşmələrdə ulduzlar sizə dəstək verəcək. Böyük uğurlarınızın ilkin qığılcımları məhz bu təqvimdən etibarən start götürəcək.

**XƏRÇƏNG** - Kifayət qədər mübahisəli gündür. İfadə etdiyiniz hər bir sözə ciddi yanaşın. Əks təqdirdə, münaqişəli situasiyalara cəlb olunacaqsınız. Falçı və cadugərlərdən uzaq olun.

**ŞİR** - Maraqlı görüşlər yolunuzu gözləyir. Bu kimi sövdələşmə və müzakirələrdə iştirakınız yaxın gələcəyin planlarını həyata keçirməyə kömək edəcək. Şübhəli adamlardan uzaq olun.

**QIZ** - Qarşınızda duran bu təqvim sizə xoş ovqat bəxş edəcək. Hər hansı xoşagəlməzliyi ağlınıza gətirməyin. Ailə üzvlərinizə, sevdiyiniz adamlara qarşı mülayim olun. İnsanları dəyərləndirin.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu təqvimdə savab işlərinizin sayını artırmağa çalışın. Bu, sonrakı proseslərin həllində sizə kömək edəcək. Mövcud problemləri həlledilməz hesab etməyin.

**ƏQRƏB** - Hər mənada uğurlu təqvimdir. Öz gücünüzə etibar edin. Çünki Göy qübbəsi sizə elə bir enerji verəcək ki, bütün maneələri dəf edə biləcəksiniz. Axşamsa sürprizlər gözlənilir.

**OXATAN** - Sevgi məsələlərinə mülayim yanaşın. Bu, həm mövcud olan əsəbiliyinizi azaldar, həm də işlərinizin yaxşılaşmasına təkan verə bilər. Qohumluq münasibətlərinə fikir verin, ayırma ovqatından qaçın.

**OĞLAQ** - Günün birinci yarısında nəzərdə tutduğunuz perspektivlərin müəyyən hissəsini həll edə biləcəksiniz. Nahardan sonra isə yalnız neytral mövqe tutmalı, riskdən uzaq olmalısınız.

**SUTÖKƏN** - Bütün diqqətinizi səhhətlə bağlı problemlərin həllinə yönəldin. Bu amilə məsuliyyətlə yanaşsanız, ciddi çətinlikləriniz olmayacaq. Axşam saatlarında simsarlarınıza baş çəkin.

**BALIQLAR** - Əksər məsələlərdə gün sizin xeyrinizə işləyəcək. Şəxsi işlərinizdə müsbət rol oynaya biləcək insanlarla da rastlaşacaqsınız. Unutmayın ki, uğurlarınıza gedən yolun astanasındasınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 6 yaşlı qızdan şahzadəyə evlənmək təklifi



**6 yaşlı Lotti Britaniya şahzadəsi Harriyə evlənmə təklifi edib. Bu barədə "Hello Magazine" yazıb. Sözügedən hadisə Harri Mançesterdə, idmanın təbliğatı ilə bağlı tədbirlərdə iştirakı zamanı baş verib. "Mən ərə getmək istəyirəm. Şahzadə olmaq istəyirəm" deyən qızcığaza şahzadənin cavabı isə belə olub: "Sən bunu istəmirsən - yaşlarımız arasında çox fərq var. Sən, sadəcə, həddən artıq çox kitab oxuyursan".**

Şahzadə eyni zamanda yığışan uşaqlarla müxtəlif oyunlar oynayıb və onlara bir çox fəndlər öyrədib. O, oyun zamanı özü kimi sarışın olan, Meysi adlı balaca bir qıza yaxınlaşaraq belə deyib: "Sən çox yaxşı və çox şirinsən. Əylənə bilirsənmi?"

Maraqlıdır ki, bu, Harriyə edilən ilk nümayişkaranə evlənmə təklifi deyil. O, may ayında ABŞ-ın keçmiş prezidenti Corc Buşun 34 yaşlı qızı Barbara Buşdan evlənmə təklifi alıb. Bu təklifi isə ona NBC kanalındakı "Today Show" kanalında veriliş zamanı Barbaranın bacısı Cenna edib.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750